SEÇİLMİŞ ƏSƏRLƏRİ

# AFAD QURBANOV

*Azərbaycanlı şəxs adları ensiklopediyası*

90

illik

yubileyinə

həsr olunur



## Afad Qurbanov

*(1929–2009)*

*Beynəlxalq və milli akademiyaların akademiki,*
*Azərbaycanın görkəmli dilçi alimi, türkoloq və*
*ictimai xadim, müasir Azərbaycan Əlifbasının müəllifi və*
*Azərbaycan Onomastika Elmi Məktəbinin banisi*

SEÇİLMİŞ ƏSƏRLƏRİ

# AFAD QURBANOV

*Azərbaycanlı şəxs adları ensiklopediyası*

Azərbaycan Milli Elmlər Akademiyasının Prezidentinin
121 saylı 07 mart 2019-cu il tarixli sərəncamı ilə çap olunur.

Afad Qurbanovun “Seçilmiş əsərləri“ toplusunun
hazırlanması üzrə məsul şəxslər:

Akademik İsa Həbibbəyli
Akademik Kamal Abdullayev
Akademik Nizami Cəfərov
Akademik Möhsün Nağısoylu
Akademik Yaqub Mahmudov

**Afad Qurbanov. Azərbaycanlı şəxs adları ensiklopediyası.**
Bakı, 2019. 256 səh.

Ad mədəniyyətinin indiki şəraitdə inkişafına xüsusi ehtiyac duyulur. Bu məqsədlə əsərdə adın cəmiyyətdə rolu, Azərbaycan adlarının yaranması və onların təkmilləşməsinə dair məsələlər aydınlaşdırılır. Kömək məqsədilə körpələrə ad seçmək və ad qoymaq yolları haqqında məsləhətlər verilir. Kitabda oğlan və qız adlarının geniş lüğəti göstərilir ki, bu da ad seçməkdə valideynlərə praktik yardım edə biləcəkdir.

Əsərdən yalnız onomoloqlar deyil, antroponimiya problemləri ilə maraqlanan hər bir insan faydalana bilər.

ISBN 9 789952 835892

© Azərbaycan Milli Elmlər Akademiyası, 2019

www.afadgurbanov.az

# GİRİŞ

*Adını mən verirəm, yaşını Allah!*

*Müasir cəmiyyətin ümummədəni problemlərinin zəruri hissələrindən birini xüsusi ad mədəniyyəti məsələsi təşkil edir. Buna görə də xüsusi ad mədəniyyəti daima diqqət mərkəzində olmuş və indi də bütün ölkələrdə, o cümlədən Azərbaycanda da diqqəti özünə cəlb etməkdədir. Bu mövzunun ümumən dil, xüsusilə nitq mədəniyyəti baxımından əhəmiyyəti olduqca böyükdür.*

*Oxuculara təqdim olunan* ***"Azərbaycanlı şəxs adları ensiklopediyası"*** *kitabı müəyyən ictimai ehtiyac və tələblər arasında meydana çıxmış və şəxs adları probleminə həsr olunmuşdur. Burada adın cəmiyyətdə, insan həyatında rolu və əhəmiyyətindən bəhs edilir, azərbaycanlı adlarının yaranma yolları, tərkibi, quruluşu, işlənməsi və onun digər xüsusiyyətləri aydınlaşdırılır.*

*"Azərbaycanlı şəxs adları ensiklopediyası" kitabında körpələrə uğurlu ad seçmək üçün şəxs adlarının lüğəti verilir. Lüğətin birinci bölməsində oğlan-kişi adlarının, ikinci bölməsində isə qız-qadın adlarının siyahısı göstərilir.*

*Bu əsərdə lüğətlərin həm* ***ensiklopedik****, həm də* ***linqvistik*** *növlərinin prinsiplərindən istifadə edilmişdir.*

*Kitabın əsas məqsədi, onun başlıca qayəsi Azərbaycan dilində işlənməkdə olan şəxs adlarını nümayiş etdirmək, gənc ailələrin körpələrə ad seçmələrinə köməklik göstərmək, hər bir adın düzgün yazılışına və doğru tələffüz edilməsinə istiqamət verməkdən ibarətdir.*

*Əminəm ki, bu kitab gənc ailələrin adseçmə tələbini ödəyib, onlara unudulmaz sevinc gətirəcəkdir.*

# ŞƏXS ADLARI NƏZƏRİYYƏSİNƏ DAİR MÜLAHİZƏLƏR

*Müasir dövrdə diqqəti çəkən ən zəruri problemlər cərgəsində şəxs adlarına dair nəzəri müddəaların işlənilməsi xüsusi diqqət tələb edir. Bu sahədə aydınlaşdırılası məsələlər az deyildir.*

# I FƏSİL

## ŞƏXS ADLARI ANLAYIŞI

Dünyada hər cür real və mücərrəd anlayışların adı mövcuddur. Buna görə də adlar dünyası son dərəcə tərkib və səciyyəvi xüsusiyyətlərə malikdir.

Ümumadlar dünyası daxilində şəxs adları sistemi digər qruplar sırasında zəruri mövqe tutur.

### 1.01. AD VƏ İNSAN

Mövcud dillərin hər birinin lüğət tərkibini iki qrup söz – ümumi və xüsusi sözlər təşkil edir, konkret və mücərrəd anlayışlar, hal və hərəkət, əlamət və keyfiyyət ümumi sözlərlə adlandırılır. Ümumi sözlər xüsusiləşdirilərək rəsmiləşdirildikdə xüsusi adlara çevrilir. Dildəki xüsusi adlar məzmununa görə çox müxtəlifdir. Məsələn, yer adları (*Gəncə, Sumqayıt*), su obyektlərinin adları (*Xəzər, Kür, Araz*), səma cisimlərinin adları (Ülkər, Zöhrə) və s. Xüsusi adlardan biri də şəxs adlarıdır. Şəxs adı anlayışı

ilə bağlı dilimizdə bir sıra ümumi ifadələr işlənir: “adam adı”, “insan adı”, “oğlan adı”, “kişi adı”, “qız adı”, “qadın adı”, “uşaq adı”... Yalnız müəyyən ümumi leksik vahid antroponimik tələb əsasında xüsusiləşdikdə konkret **şəxs adı** meydana gəlir. Məsələn, ***bahar*** və ***gözəl*** sözlərinə nəzər yetirək. Dilimizdə bahar sözü ilin bir fəslini – qışdan sonra gələn fəsli bildirir, xüsusiləşdikdə isə qadın adını ifadə edir. Beləcə də gözəl sözü, ümumən, əlamət anlayışı bildirir, lakin xüsusiləşdikdə qadın adının göstəricisi kimi çıxış edir.

Formalaşan hər bir şəxs adı, başqa ümumi sözlər kimi, dilin mövcud qanunlarına tabe olur və bunlara uyğun şəkildə işlədilir.

## 1.02. AD İNSANI FƏRQLƏNDİRƏN ƏLAMƏTDİR

Bütün xalqlarda şəxs adlarının vəzifəsi cəmiyyət üzvlərini bir-birindən fərqləndirməkdir. Ad vasitəsilə insanların birini digərindən seçmək olur. Ona görə də dünyada adsız heç bir şəxs və heç bir cəmiyyət yoxdur. Adlar olmadan cəmiyyətin formalaşması və yaşaması da qeyri-mümkündür. Deməli, ad insan üçün ən zəruridir, onsuz heç cür ötüşmək olmaz.

Ad insana körpəlik çağında bir dəfə verilir. Yazı ənənəsinə malik olan xalqlarda sənədləşdirilən hər bir ad o kəsin şəxsi adı hesab olunur.

Dünya xalqları tarixində ad anlayışı ilə bağlı müxtəlif mülahizə və ənənələr meydana gəlmişdir. Bir sıra xalqlar şəxs adlarına böyük əhəmiyyət verərək onu insanın ruhu adlandırmışlar. Adı gec verilən körpələrə ruhu olmayan varlıq kimi baxılmış və adın vaxtında verilməsini çox vacib vəzifə hesab etmişlər.

Bəzi xalqlara görə, hər bir insan bir-biri ilə möhkəm vəhdət təşkil edən üç komponentdən ibarətdir:

bədən<br>
ruh } **İNSAN**<br>
ad

İnsan üçün adın mühüm əlamət hesab olunması nəticəsində müxtəlif xalqlarda, o cümlədən türk xalqlarında cürbəcür məzmunlu adlardan istifadə olunur. Uşağa *Qəhrəman, Mübariz, Cəsarət, Qorxmaz* və sair kimi adlar verilir. Azərbaycanlılar arasında uşağın ağıllı, bilikli olması üçün *Aqil, Alim, Vaqif;* möhkəm, sağlam və gümrah olması üçün *Polad, Dəmir, Daşdəmir* kimi adlardan istifadə edilir. Bunlardan *Dəmir // Temir* adının türk xalqlarının, demək olar ki, hamısında işləndiyinə təsadüf olunur. Adın rolunu cəmiyyətdə çox yüksək qiymətləndirənlər belə hesab etmişlər ki, ad insanı inkişaf etdirir. Burada müəyyən dərəcədə həqiqət vardır. Belə ki, xoşagələn ad insanın həyatın-

da müəyyən mənəvi dayaq rolunu oynayır. Xoşagəlməz, bayağı, təsadüfi ad isə onu daşıyan şəxsin ümumi inkişafına az da olsa, öz mənəvi təsirini göstərir. Ad insanı ruhlandırmalı, cəsarətləndirməlidir.

Şəxs adının insan taleyindəki rolu və əhəmiyyətini son dərəcə yüksək tutan, onu, bir növ, ilahiləşdirən xalqlar da olmuşdur. Onlar, əsasən, adı qorumaq məqsədi ilə uşağa ***iki ad*** verilməsini zəruri hesab etmişlər. Türkmənlərdə bu ənənəyə uyğun olaraq uşağa iki ad – *doğru* (cin) və *yalançı* ad verilmişdir. Bunlardan ikinci ad birincini – doğru adı qorumağa, mühafizə etməyə xidmət göstərmişdir. Buna görə də birinci ad gizli saxlanılmış, ondan çox nadir hallarda, özü də az-az istifadə edilmişdir, lakin ikinci – yalançı ad isə gündəlik işlənilmişdir. Bəzi xalqlar ad vasitəsilə şər qüvvələri aldatmağa çalışmışlar. Bu məqsədlə uşağa *"İlənmiş", "Yaramaz", "İtquyruğu", "İtyeməz"* kimi pis ad verib onu ölümdən xilas etməyə səy göstərmişlər. Belə adlar türk xalqlarında çoxdur. Bir sıra xalqlar Əzrayılı çaşdırmaq üçün uşaq xəstələnəndə adını da dəyişmişlər. Bütün bunların hamısı ada son dərəcə yüksək qiymət verməyin, onun insan üçün əvəzsiz əlamət hesab edilməsinin nəticəsidir. Həqiqətən, ad insan üçün çox zəruridir. Lakin adın yuxarıda göstərildiyi kimi qiymətləndirilməsi, əslində, səhv mövqedir.

İnsanın adı ömürlükdür. Hər bir ad aid olduğu şəxsi ömür boyu müşayiət edir. Ad insan dünyasını

dəyişdikdə onu yaşadır. Məlum olduğu kimi, Nizami Gəncəvi XII əsrdə yaşayıb-yaratmış, öz yaradıcılığı ilə dünyada böyük ad qazanmışdır. Bu ad onu daima yaşadır. İndi Nizami Gəncəvinin adı vasitəsilə mütəfəkkir bir şairi təsəvvürdə canlandırırıq, ondan öyrənir və ona münasibət bildiririk.

İnsanın müxtəlif elm və əmək sahələrində ad qazanması olduqca vacibdir. Çünki *ad çıxarmaq* insanı tarixdə ölməzləşdirir, birdəfəlik əbədiləşdirir. Dilimizdə bu məqsədə çağıran onlarca təsirli ifadə meydana gəlmişdir:

*adı dillərə düşmək,*
*ad çıxarmaq,*
*ad almaq,*
*adı bəlli olmaq,*
*ad-san çıxarmaq,*
*adı dillərdə gəzmək,*
*adı dillərdə dastan olmaq* və s.

Cəmiyyətin təcrübəsi göstərir ki, adi ad sahibi dünyasını dəyişdikdə ailədə, nəsildə, qohum-əqrəba, dost-tanış yaddaşlarında qalır. Lakin öz fəaliyyəti ilə məşhurlaşan şəxslərin adları isə geniş dairədə cəmiyyət arasında daimi olaraq yaşayır.

Hər bir kəsə ad, əsasən, ata-analar tərəfindən verilir, övlad isə həyat fəaliyyətində özü ad qazanır.

## 1.03. ŞƏXS ADLARININ XÜSUSİYYƏTLƏRİ

Şəxs adlarının bir sıra maraqlı xüsusiyyətləri vardır. Bu növ dil vahidləri öz əlamətləri ilə başqa sözlərdən seçilir, aydın şəkildə fərqlənir.

Şəxs adlarının əsas xüsusiyyətlərindən biri nitqdə başqa sözlərə nisbətən çox tez-tez işlənməsidir. İctimai yerlərdə, iş prosesində şəxs adları tez-tez səslənir. Hər bir adam ilk görüşdə öz adını söyləyir.

İnsanlar adla bir-birinə müraciət edir. Buna görə də hər bir şəxs adı insanlar arasında ünsiyyətə, münasibət yaratmağa xidmət edir. Adın bu xüsusiyyəti, başlıca olaraq, ünsiyyəti asanlaşdırır.

Şəxs adı şərti xüsusiyyətlərə malikdir. Belə ki, hər şeyə, o cümlədən insana da ad şərti verilir. Lakin insanın adı daha şərtidir. Məsələn, ***Günay*** deyilən şəxsə verilmiş bu ad əvəzinə başqa ad – ***Aydan*** adı verilsə, onun xüsusi adı olacaqdır. Şəxs adı o dərəcədə şərtidir ki, onu dəyişmək olur. Lakin ümumi adlar belə deyildir. Onları, məsələn, *balıq, daş, alma, çiçək* və sair adları dəyişmək mümkün deyildir. Dilimizdə elə sözlər mövcuddur ki, onlar adlandırıldıqları əşyanın vəzifəsinə nisbətən uyğun gəlmir. Məsələn, "Dədə Qorqud" dastanında belə bir parça var:

*İynəyə tikən demədi o Dədə Qorqud,*
*Tikənə sökən demədi o Dədə Qorqud,*

*Gəlinə ayran demədi o Dədə Qorqud,*
*Ayrana doyran demədi o Dədə Qorqud.*

Həqiqətən, iynə paltarı tikir, tikan ilişdiyini sökür, gəlin olduğu ailədən ayrılır, ayran içildikdə qida kimi insanı doyurur. Bəs bunlar nə üçün dəyişdirilmir? Bunun bir neçə səbəbi vardır və hər şeydən əvvəl bunu etmək olduqca çətin və qeyri-mümkündür.

Hər bir xüsusi *ad milli xüsusiyyətə* malik olub, çox zaman şəxsin hansı millətə aid olduğunu, hansı dinə qulluq etdiyini bildirir. Məsələn, Əhməd, Hümmət, Məhəmməd adlarını daşıyan – müsəlman; İvan, Sergey, Matvey adlarının sahiblərinin isə xristianlara məxsus olduğu ilk andaca bəlli olur.

Şəxs adlarını başqa ümumi adlardan fərqləndirən xüsusiyyətlərdən biri də onun özgə dillərə tərcümə olunmamasıdır. Dilimizdəki *Aydın, Tamam, Mahir, Gündüz, Gözəl, Nail, Gülnar, Aygün* və sair adların başqa dillərdə qarşılığı vardır. Lakin onomastik qanunların tələbinə görə bu xüsusi adlardan ünsiyyətdə tərcümə edilmədən, milli ***ata dilində***[1] olduğu kimi istifadə olunur. Başqa şəkildə desək, Mahir adı bütün dillərdə müəyyən fonetik dəyişikliklə Mahir kimi işlənilir. Şəxs adlarında milli xüsusiyyət o dərəcədə qü-

[1] Bəzi ailələrdə ana qeyri-millətin nümayəndəsi ola bilir. Bu zaman "ana dili" dedikdə nəzərdə tutulan anlayış ifadə edilmir. Bakı, 1967, səh.255.

vvətlidir ki, bir xalqın nümayəndəsi başqa xalqlar arasında yaşasa da, yenə öz milli adını saxlayır. Məsələn, yer üzünə yayılmış azərbaycanlılar İngiltərədə, Amerikada, Almaniyada özlərinin Əlirza, Aslan, Lütfi, Kamil kimi milli adlarını saxlamışlar. Bu milli adlar milli nişanələrdir.

Xüsusi şəxs adları bir millət çərçivəsindən çıxıb geniş dairədə müxtəlif millətlərdə işlənə bilir. Belə adlar bəşəriyyətin müxtəlif nümayəndələrinin adı olduğu üçün bəşəriləşir, dünyəvi ada çevrilir. Bir çox xalqlarda işlənib, şərti mənada bəşəri ad hesab etdiyimiz belə adlar müxtəlif səbəblərdən yayılmış olur:

a) Ölkələri fəth edən sərkərdələrin adları: *Teymur, İsgəndər* və s.
b) Təzyiqsiz olaraq alınmış xoşagələn adlar: *Esmiralda, Elmira, Tamara, Flora, Sara* və s.

Bəzi adlar millətlər arasında hədd qoyulmadan çox geniş yayılaraq istifadə olunur. Dilimizdəki ***Yusif*** adı türkcə *Yusuf*, yunanca *Yosef*, almanca *Yozef*, polyakca *Yuzef*, ingiliscə *Cozef*, fransızca *Josef*, macarca *İojef* formasında işlənilir. Beləcə də ***Məhəmməd*** adı müsəlman xalqlarında müxtəlif fonetik variantlarda (*Maqomed, Mehmet, Məmməd* və s.) istifadə olunmaqdadır.

## 1.04. ŞƏXS ADLARI SİSTEMİ

Dünya xalqlarının hər birinin özünəməxsus adlar sistemi mövcuddur. Yer üzündə elə bir xalqa rast gəlmək olmaz ki, onun şəxs adları əhalisinin miqdarına bərabər gəlsin. Bütün millətlərdə insanların sayı çox, adların miqdarı isə olduqca azdır. Müasir çinlilər 1 milyard 200 milyondan artıqdır, ruslar 138, yaponlar 115, almanlar 92 milyondur. Bu xalqlardakı şəxs adlarının miqdarı milyonla yox, ancaq minlə hesablanır. Bəs bu çətinlik törətmirmi? Əlbəttə törədir. Lakin bu çətinliyin qarşısının alınması üçün bütün dillərdə onomastik – antroponimik qanunlar və modellər mövcuddur ki, bunlar meydana çıxa bilən çətinliyin tənzimlənməsinə kömək edir.

Azərbaycan dilində də xalqımızın sayından son dərəcə az miqdarda şəxs adından istifadə olunur. Müxtəlif ölkələrdə məskunlaşmış 45 milyonluq azərbaycanlılar bir neçə min addan istifadə edirlər.

Şəxs adları sistemi hər bir dilin daxili qayda-qanunları əsasında formalaşır. Məhz azərbaycanlı adları sistemi də həmin qaydalar əsasında yaranıb dilimizin lüğət tərkibində xüsusi sistem təşkil edir. Adların tərkibində iki böyük sistem daha qabarıq nəzərə çarpır:

a) kişi adları sistemi;

b) qadın adları sistemi.

Bu sistemlərin hər biri müəyyən prinsip və tələblərə müvafiq olaraq reallaşıb dildə istifadə edilir.

# II FƏSİL

## AZƏRBAYCANLI ADLARININ YARANMASI

Hər bir şəxs adı ictimai ehtiyac və tələb əsasında meydana gəlir. İnsan adlarının yaranma tarixi çox qədimdir. Bu mənəvi nailiyyətlər uzun dövrlərin məhsuludur. Yaranan hər hansı bir ad xalq tərəfindən bəyənildikdə adlar sistemində xüsusi yer tutur və istifadə edilir.

Ad yaratmaq üçün milli dilimizin söz xəzinəsi mənbə hesab olunur. Şəxs adları dildəki adi – ümumi sözlər əsasında yaradılır.

Hər söz şəxs adı ola bilərmi? Dilçilik elmində bu suala həm mənfi, həm də müsbət cavablar vardır. Belə ki, bir qrup alim dildəki hər növ sözdən şəxs adı düzəltməyin mümkün olduğunu bildirmişdir. Lakin digər alimlər bu fikrin əksini söyləmişlər. İkinci fikir həqiqətə daha uyğundur. Dilimizdəki sözlərin hamısından yox, müəyyən hissəsindən şəxs adı yaratmaq olur. Hətta eyni anlayışı bildirən iki sözdən biri şəxs adı kimi işlədilir. Dilimizdə ***ayna*** və ***güzgü*** sözləri eyni məna bildirir. Lakin bunlardan ayna sözü şəxs adının tələblərinə daha çox cavab verdiyi üçün *Ayna* şəxs adı əmələ gətirilmiş və işlənməkdədir.

Şəxs adı prinsiplərinə uyğun gəlməyərək işlədilən adlar ***"qəribə ad"*** adlanır. Belə adlara indi də dilimizdə az-çox təsadüf olunur.

İnsan adlarının əmələ gəlməsinə dair dünya dilləri və eləcə də türk dilləri üzrə müxtəlif bölgülər vardır. Türk alimləri müasir türk (Osmanlı) dilindəki adların meydana gəlməsini yeddi bənddə izah edirlər. Başqa türk dillərində isə adların yaranmasının daha çox səbəbi göstərilir.

Azərbaycanlı adlarının da meydana gəlməsinin özünə aid qayda və yolları vardır:

**1. Xalq, nəsil adları ilə bağlı əmələ gələn şəxs adları.** Azərbaycanlı *şəxs* adları sistemində işlənən bir qrup ad qəbilə, tayfa, nəsil, xalq adları ilə bağlıdır. Məsələn, *Qacar, Əfşar, Əfşan, Muğan, Oğuz, Əfqan, Özbək, Tatar* və s.

**2. Qohumluq, əqrəbalıq anlayışları ilə bağlı şəxs adları.** Azərbaycan dilində qohumluq anlayışı ilə bağlı onlarca oğlan və qız adları yaranmışdır.

Dilimizdə oğlan adlarının əmələ gətirilməsi üçün *dədə, baba, ata, qardaş, dadaş, əmi, dayı, bala* kimi sözlərdən geniş istifadə olunur. Məsələn: *Dədəxan, Dədəcan, Ağababa, Xanbaba, Hacıbaba, Atabala, Ataxan, Atakişi, Bal(a)oğlan, Balaqardaş, Ağadadaş, Dadaşbala, Ağaəmi, Baladayı* və s.

Qız adlarının əmələ gətirilməsində isə *nənə, ana, bacı, bala, qız* sözləri daha çox işlənir. Məsələn: *Nənəqız, Nənəxanım, Anaxanım, Gülbacı, Xanbacı, Balaqız, Anaqız* və s.

**3. Ailənin istək və münasibəti ilə bağlı şəxs adları.** Bu növ şəxs adları çox müxtəlif məqsədlərlə yaranmışdır:

1) İstəyə çatmaq, xoşhal olmaq, sevinmək əsasında yaranan adlar: *Fərəh, Arzu, Sevil, Səadət, Sevdim, Sevimli, Sevinc, Tapdıq, Nəhayət, Məhəbbət, Qızılgül* və s.
2) Məyus olmaq, etiraz bildirmək, narazı qalmaq əsasında meydana gələn adlar: *Bəsti, Qızbəs, Tamam, Yetər, Qızyetər, Qıztamam, Qızqayıt, Gülbəs, Kifayət, Gültamam* və s.

Tarixən Azərbaycan ailələrində oğlan uşağı daha çox sevilirdi. Bunu müdrik xalq ifadələrində də görmək olar:

*Anam, bacım, qız gəlin,*
*Əl-ayağı düz gəlin.*
*Yeddi oğul istərəm,*
*Bircə dənə qız gəlin! (Bayatı)*

Bütün ailələrdə oğlan və qıza münasibət eyni olmamışdır. Daha çox qız arzusunda olanlar *Xoşqədəm* adını yaratmışlar.

3) Uşağın gözəl, göyçək olmasını arzu etmək əsasında yaranan adlar: *Gözəl, Göyçək, Qəşəng, Aybəniz, Gülbəniz* və s.
4) Uşağın ağıllı, kamallı, natiq olmasını arzu etmək əsasında yaranan adlar: *Natiq, Vaqif, Alim, Aqil, Kamil, Maarif, Kamal* və s.
5) Uşağın bacarıqlı, qoçaq olmasını arzu etmək əsasında yaranan adlar: *Qalib, Qorxmaz, İgid, Şücaət, Cəsarət, Qəhrəman, Cahangir* və s.
6) Uşağı var-dövlət timsalı kimi görmək əsasında meydana çıxan adlar: *Sərvət, Cəlal, Dövlət* və s.
7) Uşağın yaranması və uzunömürlü olması arzusu əsasında yaranan adlar: *Minyaşar, Yaşar, Dursun, Durası, Qalası, Ölməz, Dönməz* və s.

**4. Yer adları ilə bağlı şəxs adları.** Müəyyən məqsədlərlə əlaqədar dilimizdə bir sıra yer adları şəxs adı cərgəsinə daxil olmuşdur. Hazırda *Altay, Qafqaz, Qoşqar, Himalay, Savalan, Misir, Təbriz, Şirvan, Elbrus* oğlan adları, *Asya, Şəki, Mədinə, Fərqanə, Tehran* isə qız adları kimi işlənilir.

**5. Su obyektlərinin adları ilə bağlı şəxs adları.** Azərbaycan dilinin adlar sistemində su obyekti adı ilə əlaqədar yaranmış şəxs adlarının xüsusi mövqeyi görünməkdədir.

Bu növ adlar iki yolla meydana çıxmışdır:

a) Ümumi su obyekti anlayışı ilə bağlı adlar: *Dərya,*

*Ümman* və s. Bu əsas sözlərdən yeni şəxs adları da yaradılmışdır: *Dəryanur, Nurdərya, Ümmangül* və s.

b) Konkret su obyekti adlarından yaranan adlar: *Xəzər, Araz* və s.

Su obyektləri ilə bağlı yaranmış şəxs adlarına birincisində qız, ikincisində isə oğlan adları sistemində rast gəlmək olur.

**6. Göy cisimlərinin adları ilə bağlı şəxs adları.** Xalqımızın şəxs adı yaratma təcrübəsi tarixində fəza cisimlərinin adlarına müraciət olunması halları xüsusi maraq doğurur. Dilimizdə onlarca şəxs adı fəza cisimlərinin adları əsasında meydana çıxmışdır: *Zöhrə, Hilal, Ülkər, Aftab, Kövkəb, Xurşud, Qəmər, Ulduz* və s. Bunlardan *Xurşud* adından *Xurşudə, Ulduz*dan *Ulduzə* adları yaradılıb işlədilməkdədir. Beləcə də *Qəmər* adından *Qəmərüz, Qəməriyyə, Qəmərnaz, Qəmərgül, Qəmərnur, Qəmərzər* və s. adlar düzəldilmişdir.

Azərbaycanlı adları içərisində Ay planetinin adı ilə bağlı daha çox şəxs adı meydana gəlmişdir: *Aybəniz, Aytən, Aypara, Aygül, Aygün, Aycamal, Aynur, Aysel, Aycan, Aytəkin, Günay, Aysəba* və s. Bu növ adlar qızlar üçün işlədilir.

**7. Ümumi coğrafi anlayışlarla bağlı şəxs adları.** Şəxs adları üçün yer və göy anlayışları ilə bağlı konkret ad bildirən sözlərlə yanaşı, ümumi coğrafi məf-

hum bildirən sözlərə də müraciət olunur. Dilimizdəki *Mənzərə, Sərhəd, Səhra, Sahil, Zirvə, Şəlalə, Mühit, İqlim(ə), Səma(yə)* və s. adlar bu yolla əmələ gəlmişdir.

**8. Heyvan adları ilə bağlı şəxs adları.** Bu qrup şəxs adları çöl heyvanlarının adları əsasında yaradılmışdır. Şəxs adı kimi ümumi heyvan adlarından istifadə olunarkən iki cəhətə diqqət yetirilir:

a) Güclü çöl heyvanlarının adları oğlan adı kimi işlənilir: *Bəbir, Aslan* və s.

***Aslan*** sözü ilə bağlı *Şiraslan, **şir*** sözünün iştirakı əsasında isə *Şirməmməd, Şirəli, Şirxan* və s. adlar yaradılmışdır.

b) Zərif, qəşəng, mülayim çöl heyvanlarının adları qız adı olaraq işlədilir: *Ceyran, Maral, Ahu* və s.

Türk xalqlarında bir sıra başqa heyvanların da adlarından şəxs adı kimi istifadə edildiyi müşahidə olunur. Məsələn, *Tülkü, Tülkübəy, İt, İt-küçük* və s.

**9. Quş adları ilə bağlı şəxs adları.** Dilimizdə qız-qadın adları yaradılarkən quş anlayışı bildirən sözlərdən də geniş istifadə olunmuşdur. Hazırda *Qumru, Kəklik, Turac, Durna, Laçın, Tovuz, Tutu, Ququş, Göyərçin* bir çox qızın, qadının adıdır. Bu sözlər, göründüyü kimi, çöl quşlarından ən gözəllərini bildirir.

**10. Bitki adları ilə bağlı şəxs adları.** Azərbaycan dilində bitki anlayışlarını ifadə edən sözlər əsasında onlarca şəxs adı yaradılıb istifadə olunur. Məsələn, *Qərənfil, Yasəmən, Reyhan, Bənövşə, Lalə, Nanə, Nərgiz, Lilpar, Qönçə, Çiçək, Çəmən, Gül(lü)* və s. *Gül* sözü əsasında bir çox şəxs adı formalaşmışdır. *Gülçiçək, Gülşən, Gülşad, Gülzar, Gülnur, Gülbadam, Güldəstə, Gülbacı, Gülsəfa, Gülxar, Gülçöhrə, Gülcamal, Gülcahan, Gülbahar, Yazgül, Təzəgül* və s. bitki anlayışı ilə bağlı adlar qız və qadınlar üçün istifadə olunur. Dilimizdə bitki anlayışı bildirən sözlərdən yalnız *Gül* sözü ilə bağlı bir neçə oğlan-kişi adı da mövcuddur. *Güləhməd, Gülməmməd, Gülhüseyn, Gülağa, Gülalı* və s.

**11. Meyvə adları ilə bağlı şəxs adları.** Azərbaycanlı qız-qadın adlarının bir qrupu meyvə anlayışı ilə bağlı anlayışları bildirən sözlərdən əmələ gətirilmişdir. *Püstə, Gilas, Şamama, Badam, Xurma, Narınc, Moruq, Heyva* və s. Bu sözlər əsasında yeni-yeni şəxs adları da yaradılmışdır: *Püstənur, Nurbadam, Zərbadam, Gülənaz, Nargilə* və s.

Meyvə adlarından meydana gəlmiş şəxs adları ancaq qızlara aiddir.

**12. Əşya və bərk cisimlərin adı ilə bağlı şəxs adları.** Adlar sistemində əşya və digər cisimlərin adla-

rını bildirən sözlər də az deyildir. Bu yolla yaranmış şəxs adları aşağıdakı kimidir:

a) Əşya adlarından əmələ gələn adlar: *Ayna, Sədəf, İpək, Qumaş, Qələm* və s. *Qələm sözündən Qələmzər, Qələmnur* adları da formalaşmışdır.
b) Bərk cisimləri bildirən sözlərdən yaranmış adlar: *Polad, Dəmir, Qəmbər, Gümüş, Zər(li)* və s. *Poladxan, Daşdəmir* adları da bu sözlərdən əmələ gəlmişdir.

Dilimizdə "Zər" (qızıl) sözü ilə bağlı bir sıra şəxs adı yaranmışdır: *Zərqələm, Zərintac, Zərnur, Zərnurə, Zərxanım* və s.

**13. Qiymətli daş-qaş adları ilə bağlı şəxs adları.** Daş-qaş adları dilimizdə şəxs adları cərgəsini genişləndirən mənbələrdən biridir. Gözəllik timsalı kimi yüzlərcə qız-qadına *Füruzə, Zümrüd, Mirvari, Brilyant, İnci, Almas, Yaqut, Gövhər* adları verilmişdir. ***Gövhər*** adından yeni *Gövhərtac* şəxs adı da əmələ gəlmişdir.

**14. Hərb və sülh anlayışları ilə bağlı sözlərdən əmələ gələn şəxs adları.** Bu növ adlar aşağıdakı söz qruplarından yaranmışdır:

a) Silah adlarından – *Aynalı, Kaman, Qılınc və s. Kaman sözündən Kamandar, Kamanzar* şəxs adları da əmələ gəlmişdir.

b) Hərbi rütbə və bölgü adlarından – *Əsgər, Zabit, Sərkar, Sərdar, Qoşun, Alay* və s. Bu qrup sözlərdən oğlan adları kimi istifadə olunur.
c) Sülh sözündən – əmin-amanlıq arzusu ilə *sülh* sözündən *Sülhiyyə, Sülhsevər, Sülhnur, Sülhnurə, Sülhzər* qız adları meydana gəlmişdir.

**15. İnam və ülfət bildirən sözlərdən yaranan adlar.** Bu anlayışlarla bağlı dilimizdə aşağıdakı şəxs adları formalaşmışdır: *Etibar, Etimad, Etiqad, Ehtiram, Mötəbər, Əmin* və s. Əmin adından *Əminə* qız adı yaranmışdır. Belə adlar ən yüksək insani əlamət və keyfiyyətlərin möhkəmləndirilməsi əsasında reallaşmışdır.

**16. Əlamət və keyfiyyət anlayışları ilə bağlı şəxs adları.** Dildə uşağın fiziki cəhətinə görə yaradılmış adlar da mövcuddur. Məsələn: *Sarı, Qara, Qaraxan, Qaraş, Qaraca, Qaraqaş, Ağca, Ağbəniz* və s. Rəng anlayışı ilə bağlı adlardan *Ağca, Qaraqaş, Ağbəniz* qız adları kimi işlənilir.

Keyfiyyət anlayışı əsasında *Gözəl, Əntiqə, Qəşəng, Yaxşı* şəxs adları əmələ gəlmişdir.

**17. Miqdar və sıra anlayışları ilə bağlı şəxs adları.** Şəxs adları sistemində miqdar anlayışı əsasında meydana gələn adlar da mövcuddur. Məsələn, *Bircə, Bircəxanım, Vahid, Yeganə, Milyon, Minnur* və s. Sıra anlayışı ilə əlaqəli *İlkin* və *Sani* adları formalaşmışdır.

**18. Təbiət hadisələrinin adı ilə bağlı şəxs adları.** Dilimizdəki *Boran, Tufan, İldırım, Leysan, Gursel, Bulud* və s. belə adlardandır. Bu qrup adlardan oğlanlar üçün istifadə olunur.

**19. İctimai hadisələrin adı ilə bağlı şəxs adları.** Dilin xüsusi adlar sistemində ictimai hadisə anlayışı ilə bağlı yaranmış müəyyən miqdar adlar mövcuddur. Məsələn: *İnqilab, Döyüş, Tarix, Mübariz* və s.

İctimai hadisələrlə bağlı adlar oğlanlara verilir.

**20. Dini-mifoloji anlayışlarla bağlı şəxs adları.** İslam dininin təsiri ilə dilimizdə onlarca şəxs adı formalaşıb işlənməkdədir. Məsələn: *Allahverdi, Allahşükür, Allahyar, Allahqulu, Tanrıverdi, Yaradanqulu, Haqverdi, Xudaverdi, İmamyar, İmaməddin, İnşallah, Maşallah, Namaz, Oruc, Qurban, Cənnət, Mələk, Məleykə* və s. Uşağa belə adları seçənlər Allahdan kömək, imdad istəmişlər.

**21. Əfsanəvi anlayışlarla bağlı şəxs adları.** Xalq təfəkkürünün məhsulu olan əfsanəvi anlayışlarla bağlı bir sıra adlar dilimizdə özünə yer tapmışdır: ***Rizvan*** (Cənnətin bağbanı)**,** ***Bəhmən*** (əfsanəvi pəhləvan), ***Loğman*** (əfsanəvi həkim), ***Humay*** (əfsanəvi quş), ***Tuba*** (Cənnət ağacı), ***Hürü***

(Cənnət gözəli) və s. Bunlardan *Rizvan, Bəhmən, Loğman* oğlan adı kimi işlədilir.

**22. Vaxt anlayışı ilə bağlı şəxs adları.** Zaman anlayışını bildirən sözlərdən aşağıdakı şəxs adları əmələ gəlmişdir: *Səhər, Gündüz, Bahar, Zaman, Rəcəb, Ramazan* və s.

Müasir dilimizdə şəxs adlarının əmələgəlmə mənbə və üsulları təkcə bunlarla məhdudlaşmır.

# III FƏSİL

## AZƏRBAYCANLI ADLARININ MƏNŞƏCƏ TƏRKİBİ

Dilimizdə işlənən şəxs adları mənşəyinə görə müxtəlif cəhətlərə malikdir. Şəxs adları sistemi mənşəcə nəzərdən keçirildikdə burada adların iki qrupda olduğu aydın görünür. Bunlardan biri xalis azərbaycanlı adları, digəri isə əcnəbi mənşəli şəxs adlarıdır.

***a) Xalis azərbaycanlı adları.*** Bu qrup adlar dilimizin öz materialları və qanunları əsasında tarixən formalaşmış adlardır. Məsələn, *Dönməz, Sönməz, Baxış, Yaşar və s. oğlan adları; Sevil, Sevinc, Solmaz, Gülüş* və s. qız adları. Belə şəxs adları xalqımızın estetik zövqü, ictimai vəziyyəti, mədəni səviyyəsi ilə bağlı təşəkkül tapmışdır.

***b) Əcnəbi mənşəli şəxs adları.*** Dünyada heç bir saf dil yoxdur. Bütün dillər bir-birinə söz verib, söz alır. Başqa dillərdən yalnız ümumi sözlər yox, xüsusi şəxs adları da alına bilir. Özgə dildən alınan xüsusi adlar ***əcnəbi mənşəli adlar*** hesab olunur.

Xüsusi şəxs adları bir dildən başqasına müxtəlif şərait və zamanlarda müəyyən səbəblərlə bağlı keçə

bilir. Dilimizə əcnəbi mənşəli adların gəlməsinin də müxtəlif səbəb və yolları vardır:

1) Xalqımız öz tarixi boyu şərq və qərbdən, cənub və şimaldan onu əhatə edən xalqlarla dostluq münasibətində yaşamış, onlarla mədəni, siyasi əlaqələr yaratmışdır. Bu əlaqələr əsasında dilimizə onlarca şəxs adı daxil olmuşdur.
2) Tarixən xalqımız bir sıra istilalara məruz qalmış və bunun nəticəsində dilimizə bəzi xüsusi şəxs adları yol tapmışdır.
3) Azərbaycanın coğrafi şəraiti dilimizə şəxs adları daxil olmasına imkan yaratmışdır. Belə ki, qədimdə bura ticarət yolu və ticarət mərkəzi olmuş, bununla bağlı xoşagələn əcnəbi adlar götürülüb işlədilmişdir.

Azərbaycan dilindəki əcnəbi şəxs adlarını mənşəyinə görə aşağıdakı qruplara bölmək olur: ərəb, fars, Avropa, slavyan və Qafqaz mənşəli adlar.

Dilimizdəki adlar sisteminin müəyyən hissəsini ərəb dilindən daxil olmuş şəxs adları təşkil edir. Bunlar VII əsrdə ərəblərin Orta Asiyanı və Qafqazı işğal etdikləri dövrdən başlayaraq dilimizə keçən adlardır. Ərəblərdən dilimizə adlar iki formada daxil olmuşdur. Birincisi, ərəb dilində xüsusi şəxs adı kimi işlənən hazır adlar götürülmüşdür: *Mustafa, Əhməd, İsmət, Kamil* və s. Digər qrup şəxs adları isə ərəb dilindəki ümumi sözlərin Azərbaycan dilinə keçərək xüsu-

siləşməsi əsasında meydana gələn adlardır. Məsələn: qadir – *Qadir*, qalib – *Qalib*, valeh – *Valeh*, qəmər – *Qəmər*, qüdrət – *Qüdrət*, vəhdət – *Vəhdət*, sabit – *Sabit*, vahid – *Vahid* və s.

Dilimizdə müəyyən miqdar fars mənşəli şəxs adları da vardır. Azərbaycan dilinə fars mənşəli şəxs adlarının daxil olması, əsasən, XIII–XIV əsrlərdən başlamışdır. Bu əsrlərdə ərəb dili əvəzinə fars dilindən daha geniş istifadə olunmuşdur. Bir sıra fars sözləri dilimizdə şəxs adına çevrilmişdir. Məsələn, atəş – *Atəş*, arzu – *Arzu*, hünər – *Hünər*, gümrah – *Gümrah*, qəhrəman – *Qəhrəman*, azad – *Azad*, cahan – *Cahan* və s.

Azərbaycan dilində Avropa, slavyan və Qafqaz mənşəli adlara da az-çox təsadüf edilir. Məsələn: *Telman, Litvin, Roman, Rafael, Mayıs, Novella, Flora, Roza* və s. Bu qrup adlar azlıq təşkil etdiyi üçün azərbaycanlı adları sistemində xarakterik mövqeyə malik deyildir.

Əcnəbi mənşəli adların Azərbaycan dilində işlənilməsinin bəzi cəhətləri diqqəti cəlb edir. Belə ki, bunlardan bəziləri mənşə dildə olduğu kimi istifadə edilir, bəziləri isə müəyyən dəyişikliklər edilərək işlədilir. Belə dəyişikliklər müxtəlifdir və bunlar dilimizin tələbləri əsasında baş vermişdir.

## 3. QURULUŞCA ADLARIN NÖVLƏRİ

Azərbaycanlı şəxs adlarının quruluşca növləri də müxtəlifdir. Buradakı adları aşağıdakı kimi qruplaşdırmaq olar:

a) ilkin və düzəltmə şəxs adları;

b) sadə və mürəkkəb şəxs adları.

İlkin və düzəltmə şəxs adları. Dilimizdəki adların bir qismi ilkin, digəri isə sonradan düzəldilmiş adlardır.

İlkin şəxs adları. İlkin dil vahidləri əsasında formalaşmış şəxs adları *əsli* və ya *ilkin* ad hesab olunur. Məsələn: *İsa, Musa, Əli, Ömər, Babək* və s.

**Düzəltmə şəxs adları.** Cəmiyyətin iqtisadi, siyasi və mədəni inkişafı ilə bağlı mövcud sözlərdən əmələ gətirilmiş adlar *düzəltmə şəxs adları* adlanır. Məsələn: maarif – *Maarif(ə),* arif – *Arif(ə),* mahir – *Mahir(ə),* ulduz *Ulduz(ə),* Fərid – *Fərid(ə),* şərq – *Şərq(iyyə)* və s.

Dilimizdəki şəxs adlarının lap çox hissəsi bu və ya başqa üsulla ümumi sözlərdən düzəldilmişdir.

***Sadə və mürəkkəb şəxs adları.*** Azərbaycan dilindəki şəxs adları söz təməlinin – söz köklərinin miqdarına görə iki yerə bölünür: sadə adlar, mürəkkəb adlar.

***Sadə şəxs adları.*** Bir kökdən – təməldən ibarət olan adlar *sadə şəxs adlarıdır.* Məsələn: *Cabir, Cövdət, Dönməz, Əkbər, Əsəd, Şamil, Xudat, İbad, Kərim, Lətif, Mədəd, Banu, Bəyaz, Bəsti* və s.

Dilimizdəki bəzi sadə adlar digərindən bir fonemin söz əvvəlində, ortasında və sonunda dəyişdirilməsi ilə fərqlənir.

Məsələn:

| ***ƏVVƏLDƏ*** | ***ORTADA*** | ***SONDA*** |
|---|---|---|
| Valid | Nihad | Ramin |
| Xalid | Nicad | Ramil |
| | | |
| Tahir | Elşad | Zahid |
| Mahir | Erşad | Zahir |
| | | |
| Sahib | Cavid | Bilal |
| Rahib | Cahid | Bilas |
| | | |
| Əkrəm | Asəf | Hafid |
| İkrəm | Asif | Hafiz |

***Mürəkkəb şəxs adları.*** İki və daha artıq təməldən – kökdən əmələ gəlmiş *mürəkkəb şəxs adlarıdır*. Bədirxan, Bəybala, Elxan, Xudaverdi, Eldəniz, Dünyamalı, Xaspolad, Daşdəmir, Xanbaba, Məmmədcəfər, Hüseynqulu, Mirəhməd, Məmmədxan, Mircəlal və s.

Bəzi mürəkkəb şəxs adlarının komponentləri mövqeyini dəyişdikdə başqa bir mürəkkəb şəxs adının yaranmasına səbəb olur.

Məsələn:

*Zərqələm – Qələmzər*
*Ağahüseyn – Hüseynağa*
*Günay – Aygün*
*Balabəy – Bəybala*
*Səmədağa – Ağasəməd*
*Əliməmməd – Məmmədəli* və s.

Azərbaycanlı mürəkkəb şəxs adlarında bu növ linqvistik hadisə xüsusi maraq doğurur. Ümumən antroponimik tərkibdə bunlar geniş yerə malikdir.

# IV FƏSİL

## ŞƏXS ADLARININ SEMANTİK ƏLAMƏTLƏRİ

Dildə işlənən hər bir söz müəyyən mənaya malikdir. Mənasız söz dildə nə yarana, nə də yaşaya bilər. Buna görə də məna sözün varlığını təşkil edən əsas komponentlərdən biridir. Bəs şəxs adlarında bu necədir?

### 4.01. ŞƏXS ADI VƏ MƏNA

Adın mənası varmı sualı bir çoxlarını ciddi düşündürmüşdür. Bu məsələ ilə bağlı iki fikir meydana gəlmişdir. Bir qrup alim şəxs adının mənasının olmadığını, digəri isə olduğunu söyləmişdir. Şəxs adlarında məna olmadığını iddia edənlər adlara ancaq *şərti işarə* kimi baxmışlar. Burada şəxs adlarının haradan və necə əmələ gəlməsi, daxili xüsusiyyətləri nəzərə alınmamışdır. Buna görə də birtərəfli nəticə çıxarılmışdır.

Şəxs adları müəyyən məna ilə bağlıdır. Bu növ adların mənası iki istiqamətdə özünü göstərir.

1) Hər bir şəxs adının əmələ gətirdiyi ümumi sözlərdə konkret məna olur. Məsələn: *Gözəl* şəxs adına nəzər yetirək. Bu söz dildə əlamət anlayışı bildirir: gözəl bina, gözəl ağac, gözəl paltar, gözəl mənzərə, gözəl kitab, gözəl uşaq və s. Deməli, *Gözəl* şəxs adının varlığı müəyyən məna ilə əlaqədardır.

Yeri gəlmişkən deməliyik ki, insanların çoxu daşıdığı adın mənasını bilmir. Tək-tək adamlar öz adlarının necə əmələ gəldiyini, ümumi söz kimi ifadə etdiyi mənanı izah edə bilirlər.

2) Ümumi söz insana xüsusi ad kimi verildikdə o adı daşıyan şəxslə bağlı daxili məna kəsb edir. Bu məna şəxsin məlum və naməlum olması ilə fərqlənir.

a) Naməlum şəxsin adı kimi işlənən *onomastik vahid dar məna* ifadə edir. Məsələn, "Gözəl universitetdə oxuyur" dedikdə burada Gözəl adı bizə məlum olmayan şəxsin ancaq qız-qadın olduğunu bildirir.

b) Məlum şəxsin adı kimi işlənən adlarda isə məna quruluşu – semantik struktur daha genişdir. İnsan ona məlum olan, tanıdığı hər hansı bir şəxsin adını eşidəndə onun zahiri və daxili cəhətləri silsilə halında təsəvvüründə canlanır. Həmin şəxsin boy-buxunu, sir-sifəti, davranışı və s. müəyyən mənalarda yada düşür. Deməli, şəxs adı, özü də məlum şəxs adları onu daşıyan haqqında geniş məna yükünə malik olur.

## 4.02. BİR NEÇƏ ADIN LÜĞƏVİ MƏNASI

Dildə istifadə olunan qədim və müasir adların – onomastik vahidlərin hər biri müəyyən məna ilə bağlıdır. Bunlardan bəzilərinə nəzər yetirək.

**FƏRƏH** – *Gözəl, gözəllərin gözəli.* Ümumi söz olaraq "fərəh" leksemi sevinc, şadlıq, könül açıqlığı, sevinmək, qanadlanmaq, ruhlanmaq kimi məna incəliklərini də ifadə edir.

*Təbiət nə qədər fərəh versə də,*
*Atanı ucaldar övlad nəfəsi.* (X.Rza)

***Fərəh*** sözündən *Fərəhziba, Fərəhgül, Fərəhnaz* və sair adlar formalaşmışdır. Müasir antroponimik sistemdə bu ad ən dəbdə olan adlardandır.

**FİDAN.** Müasir türk dillərində ağacın lap yeni yetişəni, körpə ağac, ağaccıq, pöhrə, cavan budaq, tumurcuq mənalarını bildirir. Daha konkret desək, ağac və kolların kötüyündən göyərən və sonradan başqa yerdə əkilən cavan ağac.

*Qumsallar, səhralar fidan yetirməz,*
*Qayalar qoynunda gülşən bitirməz.* (R.Z.)

Aşağıdakı adlar ***Fidan*** adı əsasında yaranmışdır: *Fidanə, Fidaniyə, Fidangül, Fidannaz* və s. Bu ad müasir dövrdə dəbdə olduğuna görə çox geniş yayılmışdır.

**ZƏHRƏXANIM.** Mürəkkəb quruluşa malik olan bu adın hər bir komponentinin konkret apelyativ mənası vardır. "Zəhrə" sözü *gül, çiçək* mənasını bildirir. "Xanım" sözü "xan" leksemi əsasında yaranmış və çoxmilyonlu müsəlman dünyasında geniş yayılmış onomastik vahiddir. Bu söz onomastik ünsür kimi *hörmətli, əziz, sevimli* kimi məna çalarlarını, incəliklərini də ifadə edir.

***Zəhrə*** müasir antroponimik sistemdə ümummüsəlman adı kimi dini anlayışla bağlı olaraq bir çox müsəlman xalqlarının dillərində işlənməkdədir.

Beləcə də bütün adlar məna bünövrəsinə, təməlinə bağlıdır. Məsələn, *Tahir* (təmiz), *Firuz* (xoşbəxt), *Xəndan* (şən), *Mina* (şərab şüşəsi), *Namiq* (yazan), *Mahtab* (ay işığı), *Naim* (yuxuda olan), *Nərmin* (yumşaq), *Raci* (yalvaran), *Salis* (üçüncü), *Rabiyə* (dördüncü), *Ramiyə* (mərmi atan), *Rahiyə* (gözəl ətir), *Pərviz* (zəfər çalmış), *Zivər* (bəzək), *Sara* (saf), *Səbahət* (gözəllik), *Şadman* (sevinc), *Şəmsi* (günəşə məxsus), *Şövkət* (ucalıq) və s.

# V FƏSİL

## ADSEÇMƏ VƏ ADVERMƏ ƏNƏNƏLƏRİ

*Adı gözəl olanın*
*özü də gözəl olar.*
*(Atalar sözü)*

Dünyaya yenicə göz açan hər bir körpəyə ad seçmək, onu düzgün adlandırmaq zəruri ictimai hadisələrdəndir. Buna görə də uşağa ad seçmək, ona ad vermək gənc ata-analardan ciddi məsuliyyət tələb edir. Bu, tarixən belə olmuş, bundan sonra da məsuliyyətli vəzifə olaraq qalacaqdır.

### 5.01. TARİXİ ƏNƏNƏMİZDƏN

Tarixən azərbaycanlı ailələrində uşağa ad seçmək ənənəsi indiki kimi olmamış, bu proses ictimai-tarixi inkişafla bağlı zaman-zaman məzmun və formaca dəyişib təkmilləşmə yolu keçmişdir.

Hələ lap uzaq keçmişdə yeni dünyaya gələn körpələrə ad seçilmirdi. Ad ancaq boya-başa çatmış

uşaqlara – özü də gənclərə, müxtəlif yaşlarda verilirdi. Adsız körpələr, az və orta yaşlı uşaqlar isə valideynlərinin, mənsub olduqları tayfanın, nəslin adı ilə tanınır və həmin adlarla çağırılırdı. Məsələn: "Kimlərdənsən?" dedikdə: *Qaraqurbanlıdan, Qaraqoyunludan, Bocallardan* və s. cavabları alınırdı.

Hər bir gənc özünü cəmiyyətdə tanıtdıqdan, müəyyən məşğuliyyət sahəsində məşhurlaşdıqdan sonra ona şəxsi ad verilirdi. Bu ənənənin izləri ədəbiyyatımızda, o cümlədən gözəl və dəyərli şifahi ədəbiyyat nümunəsi olan "Kitabi-Dədə Qorqud" dastanında aydın müşahidə olunur. Dastandan aydın olur ki, igidlik göstərən, fərqlənən, məşhurlaşan gənclərə ata-ana tərəfindən advermə mərasimi təşkil edilər və oraya Qorqud dədə dəvət olunarmış. O isə həmin gənc üçün xoşagələn ad verərmiş. Tariximizin uzaq keçmişində gənclərə Qorqud dədə kimi ad qoyan şəxsiyyətlər çox olmuşdur.

Orta əsrlərdə uşağa advermə ilə əsasən dindarlar, din xadimləri məşğul olmuşlar. Din xadimləri, axundlar, mollalar Quranı açıb səhifəsində hansı adı görsələr, o adı uşağa vermişlər. Şübhəsiz ki, azərbaycanlı adları siyahısına *Məhəmməd, Əkbər* və s. bu kimi adlar həm də bu yolla daxil olmuşdur.

Tarixin sonrakı dövrlərində bu ənənə get-gedə dəyişmiş, yeni-yeni qaydalar meydana gəlmişdir. Xalqımızın mədəni inkişaf tarixinin hazırkı mərhələ-

sində uşağın adlandırılması ata-ana, baba-nənə, qohum-əqrəba ilə bağlıdır. Bunlardan ən çox ata və ana uşağa ad qoymaqda iştirak edir.

## 5.02. ADSEÇMƏ ZÖVQÜ

Zövqlə seçilən hər bir ad cəmiyyətdə maraqla qarşılanır. Belə adlar valideynin estetik zövqə, filoloji bacarığa və məharətə malik olduğunu göstərir. Adseçmə prosesində cəmiyyətin müasir ictimai tələbləri, mədəni səviyyəsi nəzərə alınmalıdır. Çünki başqa sahələrdə olduğu kimi, zövq də zamanla, irəliləyişlə, mədəni tərəqqi ilə bağlı formalaşır.

Baba və nənənin nəvəyə, nəticə və kötükcəyə, ata və ananın oğul və qıza ad seçməsi dünyanın ən şərəfli, ən sevincli bir hadisəsidir. Uşağa ad seçilərkən qohum-əqrəba, dost-tanış da fikir söyləyir, təklif irəli sürür. Bəzən bir ad deyil, bir neçə ad göstərilir. Bunlardan biri seçilib bəyənilir və onun üzərində dayanılır.

Adın seçilməsində kimlərin iştirak etməsinə baxmayaraq, **əsas məsuliyyət ata və ana** üzərinə düşür.

Adseçmə məsuliyyəti olduqca ağırdır. Bəzi valideynlər bu məsuliyyətə bir o qədər əhəmiyyət vermirlər. Bunun mənfi nəticəsi uşaq boya-başa çatandan sonra daha qabarıq şəkildə özünü göstərir. Adseçmə məsələsinə soyuq münasibət bəsləmək doğru yol de-

yil. Təəssüf ki, bir sıra valideynlər vəzifələrini unudaraq aşağıdakı hallara yol verirlər:

a) Bəzi valideynlər təsadüf etdikləri hər hansı bir adın milli əlamətinə, mahiyyətinə varmadan həmin adı seçib istifadə edirlər. Bunun nəticəsində də dilə çoxlu əcnəbi adlar yol tapır.

b) Bəzən "dəbdə" olan hər hansı bir adı uşaq üçün seçirlər. 1938-ci ildən başlayaraq Vaqif adı dəbdə olmuş və ondan geniş istifadə edilmişdir. Hazırda elə bir şəhər, rayon və hətta kənd tapılmaz ki, orada bu ada təsadüf olunmasın. İndi *Aynur, Elnur, Elçin* və başqaları da dəbdə olan adlardır. Ad problemində belə hallar müsbət qiymətləndirilə bilməz. Çünki hansı səmtə baxsan, eyni ad eşidilir və bu qayda ad mədəniyyətinin inkişafına mane olur.

c) Bəzi valideynlər götür-qoy etmədən hamıda olan adlardan seçib istifadə edirlər. Məsələn: *Əhməd, Səməd, Həsən, Hüseyn* və s.

ç) Bəzi ata-analar "nadir ad" axtarırlar. Uşağa heç kəsdə müşahidə olunmayan ad seçmək yaxşı arzudur. Lakin burada da səhvə yol vermək, uydurmaçılığa qapılmaq olmaz.

Uşağa ad seçmək sərbəstdir. Lakin sərbəstlik özbaşınalıq deyildir. Adseçmə xalqın müasir mədəni tələblərinə və onun ədəbi dilinin yazılı və şifahi qayda-qanunlarına uyğun olmalıdır. Cürbəcür qəribə ad-

lara müraciət edib xalqın adseçmə ənənəsinə, adlar sisteminə xələl gətirmək tamamilə yolverilməzdir.

Bəs uşağa necə və hansı adları seçmək olar? Bu sualın cavabı bütün ailələri, ad axtaran hər bir kəsi düşündürür.

Uşağa ad seçərkən ciddi düşünülüb, ətraflı götür-qoy edilməlidir. Çünki ad insana bir dəfə verilir və bu söz ona hər şeydən yaxın olub, ömrü boyu onunla birlikdə fəaliyyət göstərir. Ad seçilərkən onun səslənməsi, ahəngdarlığı, sadəliyi və təməli mənası diqqət mərkəzində olmalıdır. Bu əlamətlər gözəl ad seçməyin bünövrəsi ola bilər. Atalar demişkən: *"Könül sevən göyçək olar"*. Gözəl ad seçməkdə də könül sevməli, ürəyəyatımlı ad axtarılmalıdır. Belə gözəl və yaxşı ada görə həmin adı daşıyan böyüyəndə ad seçəndən razı qalıb ona minnətdar olar!

Təcrübə göstərir ki, düzgün seçilməyən və ya əcaib ad insana pis təsir edir, onun inkişafına maneçilik törədir. Hətta, belə qəribə adlar bəzən onu daşıyanı gülüş hədəfə çevirə bilir.

*Ad seçərkən kimlərə müraciət etmək olar?* Bu sual, əlbəttə, gənc ailələri maraqlandırır.

Başqa sahələrdə olduğu kimi, adseçmənin də özünəməxsus çətinlikləri, qəliz məsələləri ola bilir. Belə çətin məsələləri həll etmək üçün ilk növbədə təcrübəli dədə-babalara, yaşlı nəslə, daha sonra ziyalılara və Vətəndaşların Vəziyyətini Aktlaşdırma

Qeydiyyatı (VVAQ) şöbəsinin işçilərinə müraciət edib məsləhətlər almaq mümkündür. Bunlardan başqa, ali məktəblərdə fəaliyyət göstərən Onomastika Mərkəzi əməkdaşlarının, bu sahədə dərs deyən müəllimlərin də məsləhətlərindən faydalanmaq olar.

Xalqımız şəxs adları sahəsində zəngin xəzinəyə malikdir. Dilimizdə kifayət qədər gözəl oğlan və qız adları vardır. Xoşagələn milli adlarımız hamıya yetər!

## 5.03. ADVERMƏ ƏNƏNƏLƏRİ

Advermə cəmiyyət tarixində çox zəruri və qanunauyğun hadisədir. Lakin insana ad vermək son dərəcə çətin və məsuliyyətli bir işdir. Bununla belə, advermə olduqca şərəflidir.

***"Advermə günü"*** ailə bayramıdır. Buna görə də o ailə, nəsil, qohum-əqrəba şadlığına çevrilir. Advermə bayramı insanın "doğum günü" bayramının bünövrəsini qoyur. Buna görə də "advermə günü" və həm də "doğum günü" bayramları hər bir şəxs üçün daha əziz və unudulmaz olur. İnsanın həyatında ***"advermə günü"*** bir dəfə, ***"doğum günü"*** bayramı isə hər il qeyd olunur. Advermə, təbii olaraq, hər bir xalqın adət-ənənəsində mövcuddur. Dünya xalqları çox müxtəlif qaydada ad vermək ənənəsinə malikdirlər. Məsələn, uyğurlara nəzər yetirək. Uyğurlarda

uşaq doğulduqdan üç gün sonra ailənin yaşlı kişisi ona ***təxmini ad*** verir. Uşağın qırxı çıxandan sonra "ad toyu" təşkil edilir. Bu ziyafətə imam dəvət olunur. Uşağın **əsl adını** imam verir. Ad qoyularkən uşağın üzünə duvaq örtülür. İmam uşağın qulağına azan oxuyur və seçilmiş adı üç dəfə onun qulağına deyir. Sonra uşağın üzündən örtük götürülür. Deyilənə görə, uşağın üzündəki örtük onun həyasız olmaması üçündür.

Qədim Azərbaycan xalqı özünün tarixi boyu son dərəcə zəngin advermə təcrübəsi qazanmışdır. Xalqımızın mədəni inkişafı ilə bağlı ayrı-ayrı illərdə bir sıra maraqlı, məzmunlu advermə ənənələri formalaşmışdır:

***1. Mənaya görə advermə ənənəsi.*** Məlumdur ki, hər bir şəxs adının apelyativ – təməli mənası vardır. Bu cəhət advermədə nəzərə alınır. Öz övladını xoşbəxt görmək arzusu ilə onlara gözəl, mənalı adlar verirlər. Məsələn: *Vaqif* (bilikli), *Qabil* (qabiliyyətli), *Qadir* (qüdrətli), *Qəni* (dövlətli), *Əkbər* (ən böyük), *Jalə* (şeh), *Ziya* (işıq), *Ləman* (parıldayan), *Mərdan* (mərd), *Mürsəl* (elçi), *Pakizə* (təmiz), *Səadət* (xoşbəxt), *Sirac* (çıraq), *Tələt* (üz), *Təranə* (mahnı), *Turac* (quş), *Göyərçin* (göy rəngli quş), *Fateh* (fəth edən), *Çapay* (çapmaq) və s.

Göründüyü kimi, pis mənalı sözlər ad olaraq götürülmür. Buradakı hər bir söz müəyyən müsbət məna ifadə edir. Ad məqsədi ilə dilimizdə eyni mə-

nalı, müxtəlif formalı sözlərdən də istifadə olunur. Məsələn:

**UMXAMIM – ANAXANIM**

Göstərilən adların birinci tərəfləri (*um* və *ana*) eynimənalı sözlərdir. Bu sözlər başqa adların tərkibində də işlənilir. Umnisə (um=ana+nisə=qadın-ana qadın), Anabacı (ana+bacı) və s.

***2. Xatirə advermə ənənəsi.*** Baba-nənə, ata-ana şərəfinə ad qoymaq azərbaycanlıların məişətində çoxdan yer tapmışdır. Belə adlar, əsasən, vəfat etmiş şəxsləri yad etmək, onların xatirəsini yaşatmaq üçün verilir. Lakin bəzən babalar, nənələr sağ ikən öz adlarını nəvələrinə vermək halları da olur. Məsələn: ***Əsgər*** baba öz adını nəvəsinə vermiş, indi ailədə baba da, nəvə də ***Əsgər*** adını daşıyır. Belə hallar tədricən ənənə xarakteri almaqdadır.

Valideynə hörmət kimi uşağa babanın, nənənin adını vermək gözəl adət olub, böyük və təsirli tərbiyə vasitəsidir.

Lakin bu ənənənin mənfi cəhəti də vardır. Belə ki, bəzən tayfa, nəsil işlətdiyi bir qrup addan kənara çıxmır. Babanın, nənənin, əminin, dayının, xalanın, bibinin adı nəvəyə, nəticəyə, kötükcəyə verilir, təkrar olunur. Həmin nəsil "öz adları"ndan başqa əlavə ad işlətmədikdə, ümumiyyətlə, xalqın adlar sisteminin inkişafına maneçilik törədir. Hər nəsil "öz adları"na

yeni-yeni adlar da gətirməli və bununla onu müasirləşdirib, zənginləşdirməlidir.

***3. Uşağa tarixi şəxsiyyətlərin adını vermək ənənəsi.*** Xalqımız öz görkəmli oğul və qızlarının qədir-qiymətini bilmək, onları daima xatırlamaq kimi gözəl xüsusiyyətə malikdir. Bunun nəticəsində əsrlərcə yaranmış məşhur klassik sənətkarların ad və ya təxəllüsü, tarixi şəxsiyyətlərin, dövlət xadimlərinin adları yüzlərcə uşağa verilir. Məsələn: adlarımız sistemindəki *Nizami, Füzuli, Xaqani, Xətai, Nəsimi, Vaqif, Məhsəti, Babək, Həcər, Nigar* və s. belə adlardandır.

***4. Uşağın çox yaşaması arzusu ilə ad vermək ənənəsi.*** Hər bir valideyn öz övladının çox yaşamasını arzu edir. Bu arzu və istəklə uşaqlara aşağıdakı adlar verilir. Məsələn: *Yaşar, Solmaz, Qayıtmaz, Minyaşar, Sönməz* və s.

***5. Ailəyə qız gəlməsinə etiraz əlaməti kimi advermə ənənəsi.*** Adətən, ailədə bir neçə qız olub, heç bir oğlan olmayanda qız istəməmək arzusu ilə bağlı aşağıdakı adlar verilir: *Tamam, Yetər, Qızbəs, Qızqayıt, Qızyetər, Qıztamam, Kifayət* və s.

***6. Ölən uşaqdan sonra doğulana qalmaq, durmaq anlayışlı ad vermək ənənəsi.*** Bu məqsədlə xalqımız bir sıra şəxs adından istifadə edir. Məsələn: *Dursun, Dönməz, Oyandır, Dayandır* və s.

Bir daha qeyd etməliyik ki, ad vermək olduqca ciddi məsuliyyət tələb edən problemdir. Müasir onomas-

tik tələblərə uyğun verilən hər bir ad gözəl, ahəngdar və poetik olmalıdır. Düzgün advermə ilə bağlı xalqımızın onlarca dəyərli atalar kəlamları vardır: *"Gözəl addan Allahın da xoşu gəlir"*, *"Ad verənə rəhmət//Ad qoyana rəhmət"*, *"Adını mən verdim, yaşını Tanrı versin"*, *"Adı ilə yaşasın!"*

## 5.04. ADLARIN CİNSƏ GÖRƏ SEÇİLMƏSİ

Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibində bir qrup şəxs adı vardır ki, bunlardan həm oğlan, həm də qız adı kimi istifadə olunur. Dilimizdə belə adların miqdarı 70-dən çoxdur: *Afət, Arzu, Almaz, Balaca, Bahar, Bülbül, Barat, Eltac, Vəfa, Vüsal, Dilavər, Elsevər, Etibar, Ədalət, Vilayət, Qismət, Qüdrət, Qəmər, Ziyafət, Zülfü, Zümrüd, İffət, İzzət, Könül, Gülşad, Yavər, Yaqut, Yadigar, Kifayət, İltifat, İnayət, İsmət, Lütfü, Laçın, Mahnur, Mehman, Məhəbbət, Məstan, Pərvin, Seyran, Səxavət, Sədaqət, Tərlan, Tale, Ülfət, Hənifə, Həsrət, Çərkəz, Cənnət, Şirin, Şövkət, Şərbət, Hilal, Həqiqət, Şeyda, Şəfa, Şəkər, Şərafət, Xurşid, Xoşbəxt* və s.

Dildə şəxs adlarının müştərək işlədilməsi xoşagəlməz haldır. Çünki eyni adın həm kişi, həm də qadın üçün istifadə olunması ünsiyyəti ağırlaşdırır, dolaşıqlıq əmələ gətirir. Hətta adı daşıyan kişilərdə sıxıntı törədir.

Cinsə görə adlar fərqləndirilərkən məna və məzmun əsas götürülməlidir. Oğlan üçün ən çox müdriklik, məğrurluq, igidlik, cəsarət, şücaət; qızlar üçün isə gözəllik, zəriflik, incəlik, nazlılıq, vəfalılıq başlıca cəhətlərdir. Ona görə də mənalara uyğun olaraq oğlan və qız adları seçilib işlədilməlidir. Bu məqsədlə *Hilal* və *Qəmər* adlarına nəzər yetirək. Məlum olduğu üzrə ***hilal*** sözü 14 gecəlik ay mənasını bildirdiyi kimi, həmçinin ***qəmər*** sözü də *ay* deməkdir. Bunların hər ikisi gözəllik anlayışı ilə bağlıdır. Ona görə də *Hilal* və *Qəmər* şəxs adları kişidən çox qadına yaraşır və onlardan qadın adları kimi istifadə edilməsi daha məqsədəuyğun olar.

## 5.05. ADLARIN QAFİYƏLƏNDİRİLMƏSİ

Səslənməsi xoşa gəlmək üçün xalqımız qafiyələnən adlar sistemindən hələ çox qədim zamanlardan istifadə etməyə başlamışdır. Uşağa qafiyəli ad verməkdə böyük təcrübə əldə edilmişdir.

İllərcə gedən bu ictimai prosesdə qafiyəli ad işlətməkdən ləzzət almağa çalışmışlar.

Xalqımızın tarixində ad qafiyələndirilməsinin bir çox növləri müşahidə olunur:

1) *Ata ilə oğul (AO) adının qafiyələndirilməsi.* AO növlü ad qafiyələndirilməsində ata adının ahənginə uyğun adlar işlədilir.

CAVİD (*ata*) – DAVİD (*oğlu*)...
MAHİR (*ata*) – ZAHİR (*oğlu*)...
RƏHİM (*ata*) – HƏŞİM (*oğlu*)...

2) *Ana ilə qız (AQ) adının qafiyələndirilməsi.* AQ növlü ad işlədilərkən ana adı əsas götürülür və ona uyğun adlar seçilir.

XALİDƏ (*ana*) – VALİDƏ (*qızı*)...
SƏLİMƏ (*ana*) – ALİMƏ (*qızı*)...
GÜLARƏ (*ana*) – DİLARƏ (*qızı*)...

3) *Qardaş ilə qardaş (QQ) adının qafiyələndirilməsi.* QQ növlü ad qafiyələndirilməsində qardaşla qardaşların adı uyğunlaşdırılır.

HAMİD – ZAHİD – XALİD – VAHİD...
CƏFƏR – SƏFƏR – MƏHƏR – ƏKBƏR...
KAMRAN – NİHAN – İMRAN – QURBAN...

4) *Bacı ilə bacı (BB) adının qafiyələndirilməsi.* BB növlü ad qafiyələndirilməsində böyük bacının adı əsas götürülür, sonrakı adlar ona uyğunlaşdırılır.

KÜBRA – SUĞRA – TURA...
TÜNZALƏ – RAMİLƏ – KAMİLƏ...
ŞƏFİQƏ – TOFİQƏ – RƏFİQƏ...

5) *Qardaş ilə bacı (QB) adlarının qafiyələndirilməsi.* QB növlü ad qafiyələndirilməsində böyük qardaşın və ya böyük bacının adı əsasında adlar qafiyələndirilir.

AZƏR – HƏCƏR – NƏZƏR...
(oğlan) (qız) (oğlan)

GÖVHƏR – HÜNƏR – HEYDƏR...
(qız) (oğlan) (oğlan)

ƏHLİMAN – FƏRMAN – XURAMAN...
(oğlan) (oğlan) (qız)

Ad məsələsində "ailə qafiyələndirilməsi" daha maraqlı ola bilər. Bu qaydada qafiyələndirilərkən oğlanlar üçün ata, qızlar üçün ana adı əsas götürülməlidir.

**Bütün ailə üzvlərinin qafiyələndirilməsi**

| | |
|---|---|
| Ata<br>*adına uyğun* | Ana<br>*adına uyğun* |
| SABUTAY<br>ŞUBAY<br>*(1-ci oğul)* | FİDAN<br>ŞÜKRAN<br>*(1-ci qız)* |

| | |
|---|---|
| QAMBAY | TÜRKAN |
| *(2-ci oğul)* | *(2-ci qız)* |

Qafiyəli ad ailəni bəzəyir, onu daha da gözəlləşdirir. Bu ənənə tarixən yaranmış və müasir türk xalqlarında da mövcuddur. Ad mədəniyyətinin yüksək inkişafı naminə bu ənənə qorunub saxlanılmalı və onu genişləndirib inkişaf etdirmək isə gənc ailələri daha çox maraqlandırmalıdır.

## 5.06. DOĞUM GÜNÜ VƏ ONU QEYD ETMƏK ƏNƏNƏSİ

Doğum günü hər bir uşağın yenicə başlanan həyatının ilk və tarixi günü hesab olunur. Bu tarixi gün həmin adı daşıyanın və onun ata-anasının yadında unudulmaz olub əbədiləşir.

Başqa xalqlarda olduğu kimi, azərbaycanlılarda da doğum gününü qeyd etmək bir ənənəyə çevrilmişdir. Doğum günü hər il təntənəli qeyd olunur, buna dair ziyafət təşkil edilir.

Şən və şöhrətli belə ziyafətlərdə – şadlıq gecələrində şairlər bu hadisənin şərəfinə şeir qoşur, ürəkləri sevindirirlər. Həmin məqsədlə Səfərova Zülfiyyə *"Doğum günün mübarək!"* adlı şeirində yazır:

*Göz açdın, ay körpə, həyata bu gün*
*İsti beşiyinə çiçəklər dolsun.*
*Tanrıdan qismətin şadlıq, toy, düyün*
*Sənin doğum günün mübarək olsun.*

*Xoş gəldin, yurdumun qartal balası,*
*Vətənin aşılmaz, keçməz qalası.*
*Qanında Dədəmiz Qorqud duası*
*Körpəm, doğum günün mübarək olsun.*

*Atanın, ananın gözünün nuru,*
*Babanın, nənənin qəndi-noğulu.*
*Azəri balası, azəri oğlu*
*Körpəm, doğum günün mübarək olsun.*

*Adını biz verək, bəxtini Tanrı,*
*Tacını biz verək, taxtını Tanrı.*
*Bilir bütün işin vaxtını Tanrı,*
*Körpəm, doğum günün mübarək olsun.*

*Tez böyü, düşmənin bağrı göynəsin,*
*İçində yurd salan ağrı göynəsin.*
*Qoy vətən söyləsin, ellər söyləsin:*
*Körpəm, doğum günün mübarək olsun.*

Azərbaycan dilində doğum günü bəzən ad günü kimi də işlənir. Xalqımızın unudulmaz şairi Osman

Sarıvəlli *"Ad günün mübarək!"* şeirində ad gününü belə tərənnüm edir:

*Əlvan çiçəklərlə bəzənir eyvan,*
*Bayram paltarını geyinir anan...*
*Qohumlar, qonşular iki-bir, üç-bir,*
*Əlləri çiçəkli tökülüb gəlir.*

*Gül kimi fərəhlə açılır üzün,*
*Sənin ad günündür, ay oğul, bu gün.*
*Ömrünün bağında gül açır bahar –*
*Bunun da bir şövqü, bir calalı var...*

*Nə kaman dincəlir, nə tar dayanır,*
*Fərəhli gözlərdə sevinclər yanır;*
*Aləmə sığmayır çalan-çağıran,*
*Süfrədə yeməklər dəyişir hər an...*

*Qonaqlar söz alıb danışır bir-bir:*
*Dünyada hər kəsdən şirindir övlad,*
*Böyük bir millətin fəxridir bu ad –*
*Əziz "Babək" adı...*
*– Mübarək olsun!*
*Sənin sağlığına!*
*– Xoşbəxt ol, quzum!*

Doğum günü keçirmək azərbaycanlı ailələrinin, ən sevimli bayramıdır. Ailə bayramı olan doğum günü səbirsizliklə gözlənilir, böyük məhəbbətlə qarşılanır, yüksək şənliklə keçirilir. Ad gününü qeyd etmək ənənəsi son illərdə daha da genişlənmişdir. Söz ustalarımızın, alimlərin, bütün ziyalıların 50 yaşı tamam olanda geniş ictimaiyyət tərəfindən ilk dəfə qeyd edilir. Sonradan bu, hər on ildən bir təkrar olunur. Dünyasını dəyişənlərin isə adlarının əbədiləşdirilməsi üçün müəyyən müəssisələr, obyektlər onların adı ilə adlandırılır.

## 5.07. ADIN QORUNMASI

Uşağa verilmiş hər bir adın taleyi, onun təravəti, gözəlliyi düzgün işlədilməsindən, ***qorunmasından*** asılıdır. Düzgün istifadə olunmayan şəxs adları öz gözəlliyini itirir, xoşagəlməz leksik ünsürlərə çevrilir.

Uşağa rəsmi ad verib, ondan xalq arasında düzgün istifadə etməmək halları çox olur. Bunlar aşağıdakı kimi özünü göstərir:

a) Rəsmi ad təhrif edilir. Belə hallarda adın bir hissəsi ixtisar olunur və ya ada müxtəlif səslər artırılaraq onun quruluşu dəyişdirilir. Bunun nəticəsində şəxs adları eybəcərləşir, hətta milli forma və məzmununu itirir. Məsələn, *Əli – Alik, Firəngiz – Fira, Tamam – Toma, Gül-*

*nara – Gülya, İsmayıl – İsik, Aliyə – Alya, Firəngiz – Fira, Səbinə – Saba, Cəmilə – Cema, Xəyalə – Xatuş, Rumiyə – Ruma, Nazlı – Naza, Ceyran – Culya* olduğu kimi.

b) Əsas adla yanaşı ikinci bir ad da işlədilir. İkinci ad vermək – uşağı başqa adla çağırmaq həyatda, xüsusi olaraq rəsmi sənədləşmə işlərində dolaşıqlığa gətirib çıxarır.

c) Bəzi adların deyilişi və yazılışı təhrif olunur. Adlardan istifadə edərkən təhrifə yol vermək ad mədəniyyətinə ciddi xələl gətirə bilir.

Belə hallar yolverilməz olub, onomastik tələblərin tam ziddini təşkil edir. Buna görə də verilmiş adı qorumaq valideynlərin ictimai-zəruri vəzifələri olmalıdır. Çünki adın qorunması ad mədəniyyəti inkişafının əsasıdır.

# VI FƏSİL

## ŞƏXS ADLARININ YAZILIŞI VƏ DEYİLİŞİ

Adın gözəlliyi, təravəti onun düzgün deyilişi və yazılışından çox asılıdır. Ədəbi-mədəni baxımdan düzgün işlədilməyən, təhrif olunan adlar onu daşıyan şəxsə mənfi təsir göstərə bilir. Belə hallara yol verməmək üçün şəxs adlarının yazılışı və deyilişinə dair ədəbi dilimizdə formalaşmış zəruri onomastik qaydalara ciddi əməl olunmalıdır. Bu qaydalar şəxs adlarının həm yazılışına, həm də deyilişinə aiddir.

### 6.01. ŞƏXS ADLARININ YAZILIŞI

Adların düzgün yazılışı vacib ictimai-mədəni məsələlərdəndir. Bu qrup sözlərin özünəməxsus cəhətləri vardır. Mövcud ümumi orfoqrafik prinsiplər burada da tətbiq edilir. Belə ki, şəxs adlarının yazılışı da ümumi orfoqrafiya qaydaları ilə bağlıdır. Lakin bununla bərabər şəxs adlarının sırf özünəməxsus yazılış qaydaları da mövcuddur.

1. Dilimizdə işlənən hər bir şəxs adının baş hərfi böyük yazılır: *Aytən, Aybəniz, Saleh, Xatirə, Elnur, Murad, Mürşid, Mübariz, Elçin, Elmar* və s.
2. İki sadə şəxs adının birləşməsindən əmələ gəlmiş adlar bitişik yazılır: *Məmmədəli, Əbdüləziz, Əliheydər, Həsənəli, Cəfərqulu, Qulamhüseyn, İbrahimxəlil, Əbdüllətif, Məlikməmməd* və s.
3. Mürəkkəb şəxs adlarında iki sait qoşalaşdıqda birinci sözün son saiti yazılmır[1]. **Əli+Əsgər (Ələsgər), Mirzə+Əli (Mirzəli), Əli+Abbas (Əlabbas), Əli+İsa (Əlisa)** və s.
4. Tərkibində "ağa", "xan", "bəy", "mirzə", "hacı", "seyid", "soltan", "xanım" sözləri olan mürəkkəb şəxs adları bitişik yazılır: *Ağaverdi, Əlimirzə, Xanbaba, Mehdixan, Əlibəy, Mirzəli, Hacıbaba, Soltansəlim, Kiçikxanım, Seyidəhməd* və s.
5. Şəxs adlarının bəzisi iki variantda yazılır: Əli//Alı, Səlim//Selim, İsə//İsa, Qafar//Qaffar, Abas//Abbas, Soltan//Sultan və s.
6. Bəzi şəxs adlarının yazılışında tarixi-ənənəvi prinsip əsas götürülür. Buna görə də onların yazılışı ilə deyilişi arasında müəyyən fərqlər meydana çıxır:

| ***Yazılır*** | ***Deyilir*** |
|---|---|
| *Füzuli* | F(i)zuli |
| *Bəsti* | Bəs(d)i |

[1] Bəzi adlar (Ağaəli, Əliağa və s.) bu qanuna müvafiq gəlmir.

| | |
|---|---|
| *Lütfiyar* | Lüt(v)iyar |
| *Əbdülhəmid* | Əbd(i)lhəmid |
| *Ələkbər* | Ələ(h)bər... |

7. Qoşa samitli adlar aşağıdakı kimi yazılır:
– *Feyzulla, Seyfulla, Nəsrulla, Nəsibulla, Əsədulla, Eynulla, Qeybulla, Beydulla;*
– *Qiyasəddin, Siracəddin, Tacəddin, Hüsməddin, Elməddin, Ziyəddin, Zirəddin, Nurəddin, Seyfəddin, Sədrəddin, Səlahəddin, Camaləddin, Şəmsəddin, Şücaəddin;*
– *Zəkəriyyə, Şəmsiyyə, Bəhriyyə, Qədriyyə, Ələviyyə, Zəkiyyə, Zülfiyyə, Mərziyyə, Nuriyyə, Ruqiyyə, Rəmziyyə, Rəsmiyyə, Rəbiyyə, Səbiyyə, Sülhiyyə, Ülviyyə;*
– *Hədiyyə, Firayyə, Sürəyya, Münəvvər, Təvəkkül, Səttar.*

## 6.02. ŞƏXS ADLARININ DEYİLİŞİ

Şəxs adlarından ədəbi tələffüz normaları əsasında istifadə edilməsi yüksək nitq mədəniyyətinin əsas əlamətlərindən biridir. Dildə başqa sözlər kimi, şəxs adları da bir sıra ədəbi tələffüz xüsusiyyətlərinə malikdir. Adların tələffüzündə bu xüsusiyyətlərə mütləq əməl olunmalıdır.

Məlumdur ki, şəxs adlarının ədəbi tələffüz variantı ilə yanaşı, yerli dialekt və şivə variantları da olur.

Məsələn:

*Bənövşə* – Bənöyşə
*Xalid* – Xəlit
*Qurban* – Qurvan
*Həmayil* – Hamayıl
*Yusif* – Usuf
*Abdulla* – Avdullah
*İbrahim* – İrvaham
*Zibeydə* – Ziveydə
*Rübabə* – Urbaba
*Məcnun* – Məjnun
*Qızyetər* – Qızeytər
*Xaliq* – Xalıx
*Yunis* – Yunus
*Ayişə* – Ayşa
*Hüseyn* – Söyün
*Səadət* – Sədət
*Münəvvər* – Minəvər
*Zeynəb* – Zeynaf
*Əbdül* – Avdıl
*Ruqiyyə* – Urquya
*Gövhər* – Köhər
*Həsən* – Hasan...

Nitq mədəniyyəti tələbləri baxımından yerli tələffüz variantlarına (misalların ikinci cərgəsindəki adlar) qarşı ciddi mübarizə aparılmalıdır. Hər bir xüsusi ad misalların birinci cərgəsində olduğu kimi, ancaq ədəbi dilin tələffüz normalarına uyğun işlədilməlidir.

Şəxs adlarının tələffüzünə – düzgün deyilişinə dair bir sıra qayda və tələblər mövcuddur:

**1.** Şəxs adlarında vurğu son heca üzərinə düşür[1]: *Səməd, Əhməd, Əhəd, Hürü, Güllü, Telli, Əzəl, Əbil, Əbdül* və s.

**2.** Bəzi şəxs adlarında "a" səsi sözün əvvəlində və ortasında uzun tələffüz olunur[2].

**Sözün əvvəlində**

| | |
|---|---|
| Arif – A:rif | Arəstə – A:rəstə |
| Afat – A:fat | Afət – A:fət |
| Afiq – A:fiq | Adilə – A:dilə |
| Atif – A:tif | Aruzə – A:ruzə |
| Aqil – A:qil | Asudə – A:sudə |
| Alim – A:lim | Asimə – A:simə. |

**Sözün ortasında**

| | |
|---|---|
| Vaqif – Va:qif | Hidayət – Hida:yət |
| Sabir – Sa:bir | Mətanət – Məta:nət |

[1] **Qeyd:** Bəzi alınma şəxs adlarında bu tələffüz qanunu pozur. Məsələn, *Hamlet, Sara, Elmira, Esmira* və s.

[2] Səsin uzunluğu qoşa nöqtə (:) ilə göstərilir.

Mahir – Ma:hir  Əmanət – Əma:nət
Yaqub – Ya:qub  Tahirə – Ta:hirə
Şadman – Şad:man  Şayəstə – Şa:yəstə...

3. Ahəng qanununa tabe olmayan adlardan əksəriyyətinin tərkibində bəzi saitlər bir qədər uzun deyilir. Məsələn:

*Məhbubə* – Məhbu:bə
*Ruhəngiz* – Ruhən:giz...

***4.*** Bəzi adların ikinci hecasında gələn "i" saiti ya bir qədər uzun tələffüz olunur, ya da həmin saitdən sonra bir (y) samiti əlavə olunur:

Minirə – Mini:rə – *Mini(y)rə*
Səlimə – Səli:mə – *Səli(y)mə*
Əzizə – Əzi:zə – *Əzi(y)zə...*

**5.** Tərkibində "ai" sait birləşməsi olan adlarda həmin saitlərin arasına bir (y) samiti əlavə olunur:

*Nailə* – Na(y)ilə
*Naibə* – Na(y)ibə...

**6.** Sonu "d" səsi ilə bitən iki və üçhecalı adlarda "t" səsi kimi tələffüz olunur:

*Fuad* – Fuat
*Rəşad* – Rəşat
*Nihad* – Nihat
*Mahmud* – Mahmut
*Məcid* – Məcit
*Məqsud* – Maqsut
*Cavad* – Cavat
*Azad* – Azat
*Əsəd* – Əsət
*Fərid* – Fərit
*Məhəmməd* – Məhəmmət
*Ümid* – Ümit...

**7**. Yazılışdakı bəzi cingiltili səslər tələffüzdə karlaşır:
*Talib* – Talı(p)
*Yaqub* – Yaqu(p)
*Nəsib* – Nəsi(p)
*Sahib* – Sahi(p)...

**8.** Bəzi adların tələffüzündə kar səslər cingiltiləşir:
*Muxtar* – Mux(d)ar
*Mustafa* – Mus(d)afa
*Gülçöhrə* – Gül(c)öhrə...

**9**. Adların tərkibindəki dodaq samitlərindən əvvəl gələn samit (m) kimi tələffüz edilir:
*Qənbər* – Qə(m)bər
*Zenfira* – Ze(m)fira
*Dönməz* – Dö(m)məz
*Sünbül* – Sü(m)bül...

**10.** Adların tərkibindəki eynicinsli cingiltili qoşa samitlər bir uzun samit kimi tələffüz olunur:

*Məhərrəm* – Məhə(r:)əm
*Abdulla* – Abdu(l:)a
*Ənnağı* – Ə(n:)ağı...

**11.** Adların tərkibindəki bəzi eynicinsli qoşa samitlərdən biri tələffüzdə karlaşır:
*Abbas* – A(p)bas
*Cabbar* – Ca(p)bar
*Zirəddin* – Zirə(t)din...

Hər bir valideyn övladına verdiyi adın ilk rəsmi sənəd – doğum haqqında şəhadətnamədə düzgün yazılmasına nail olmalı, bununla bərabər adın ədəbi şəkildə tələffüzünə də daima nəzarət etməlidir. *Uşağın adını da özü kimi sevmək və qorumaq lazımdır*. Çünki bu sahədəki səhvlər sonra böyük çətinliklər, əngəllər törədə bilir.

# AZƏRBAYCAN ƏLİFBASI

| | | |
|---|---|---|
| A | X | Ö |
| B | I | P |
| C | İ | R |
| Ç | J | S |
| D | K | Ş |
| E | Q | T |
| Ə | L | U |
| F | M | Ü |
| G | N | V |
| Ğ | O | Y |
| H | | Z |

** 1992*

# BƏZİ ADLARIN ENSİKLOPEDİK ŞƏRHİ

*Azərbaycan dilinin lüğət tərkibində xüsusi mövqe tutan şəxs adlarının bir çoxunun mənası şəffafdır. Lakin bununla yanaşı, mənası nisbətən və ya tam aydın olmayan antroponimlər də az deyildir. Bu kitabda həmin adlardan hələlik müəyyən hissəsinə dair ensiklopedik məlumat verməklə kifayətlənmişik.*

# A–Z

## - A -

***ABİD (o.)**** – Daima ibadətlə məşğul olub, ondan ləzzət alan insan.

***ADİL (o.)*** – Doğru-düzgün iş görən, hər şeyə insafla yanaşan, son dərəcə ədalətli, təbiətən zəhmli insan.

***AFAT (o.)*** – Gözəllərin gözəli.

***AFƏT (q.)*** – Gözəl, qəşəng.

---

* Mötərizədə verilən (o.) – oğlan, (q.) – qız, (o.–q.) – müştərək adları bildirir.

| | |
|---|---|
| ***AQİL (o.)*** | – Yüksək ağıl sahibi, dərin dərrakəli insan.<br>*"O, çox aqil adamdır".*<br>***Aqilə*** qız adı buradan əmələ gəlmişdir. |
| ***ALIFUAD (o.)*** | – İki sözün – *Alı* və *Fuad* sözlərinin birləşməsindən yaradılmışdır. Nadir adlardandır. |
| ***ALİYƏ*** (q.) | – Uca, yüksək, hündür, əlçatmayan. |
| ***ALƏMZƏR*** *(q.)* | – Dünyanın, kainatın, aləmin bütün qızılı, çox cazibədar qız. |
| ***ARƏSTƏ*** (q.) | – Bəzənmiş, sığallanmış. |
| ***ARİF (o.)*** | – Dərin biliyə malik olan, hər şeyi tez seçən, ayırd edə bilən şəxs. |
| ***ATİLLA (o.)*** | – Bütün dünyada tanınmış əzəmətli türk sərkərdəsi (400–453). |
| ***ASİMƏ*** (q.) | – Öz namusunu qoruyan, ismətli, saf xarakterli. |
| ***ARZUMAN (o.)*** | – Arzu olunan insan. İki sözdən yaranmışdır: *arzu* və *man*. |

"Man" qədim türk dilində ***insan*** deməkdir.

***AVAZƏ (q.)*** – Yaxşı səs, xoşagələn tələffüz.

***AYDAN (q.)*** – *Ay planetindən gəlmiş qız; məcazi mənada ağ, qəşəng qız, dünya gözəli, ay kimi işıqlı...*
Azərbaycan dilində ***Ay*** sözündən *Aytən, Aytəkin, Aybəniz, Ayməlk, Aynaz, Aynisə, Aynur, Aynurə, Aypara, Aysel* və s. ad əmələ gəlmişdir. ***Aydan*** müasir dövrün ən çox dəbdə olan adlarındandır.

***AYGÜN (q.)*** – "Ay" və "günəş" kimi ləkəsiz, gözəl, göyçək.

***AYNUR (q.)*** – Ay kimi aydın, işıqlı, cəlbedici, nurlu.

***AYSU (q.)*** – ***Ay*** və ***su*** sözlərindən əmələ gəlmiş mürəkkəb quruluşa malik addır. *Ay kimi saf, su kimi duru* mənalar ifadə olunur. Zəmanəmizin dəbdə olan ən maraqlı adları cərgəsindədir.

# - B -

***BABACAN (o.)*** – Səmimiyyət, mehribanlıq ifadə edir. ***Baba*** və ***can*** sözlərindən düzəldilmiş mürəkkəb addır.

***BADI (q.)*** – Küləkli, külək olan yer.

***BAĞIR (o.)*** – *Bağır* qaraciyər sözünün sinonimidir. Məcazi halda ən yaxın, ən əziz və ən mehriban mənasını bildirir.

***BAYDAR (o.)*** – Bu antroponim Çingiz xanın nəvəsinin adıdır. ***Baydar*** adı Gürcüstanın indiki Marneuli (keçmiş Sarvan) adlanan rayonu ərazisində həm də toponim – kənd adıdır.

***BAYRAM (o.)*** – Bu sözlə hər hansı bir xalq üçün xoş sayılan milli və dini günlər bildirilir.

*Bayram oldu, heç bilmirəm neyləyim,*
*Bizim evdə dolu çuval da yoxdur.*
*Düqiylə yağ hamı çoxdan tükənmiş,*
*Ət heç ələ düşməz, motal da yoxdur.*
(M.P.Vaqif)

Konkret bayram adları ilə bağlı da bir sıra şəxs adı meydana gəlmişdir. *Oruc* antroponimi Orucluq bayramının, *Qurban* Qurban bayramının adından yaranmışdır.
***Bayram*** adından *Bayraməli, Bayramqulu* kimi adlar formalaşmışdır.

***BƏDƏL (o.)*** – Hər hansı bir şeyin yerini tutan, onu əvəz edən.

***BƏHİYƏ*** (q.) – Gözəl, yaraşıqlı, cəlbedici.

***BƏHMƏN (o.)*** – Yüksək ağıl sahibi, doğru yol seçən, yalanı dilinə gətirməyən.

***BƏŞARƏT (q.)*** – Muştuluq bildirən, şad xəbər gətirən.

***BİLLURƏ (q.)*** – Təmiz, saf, duru.

***BUDAQ (o.)*** – Ağac budağı mənasını bildirir. Budaq yaşıl və quru, böyük və kiçik olur.
Övladına ***Budaq*** adı verən valideynlər onun böyük budaq kimi olmasını arzulayırlar.
***Budaq*** türk xalqlarında çox yayılmış şəxs adlarındandır. Bu

sözdən Türkiyə türklərində "Budaq" antroponimi ilə yanaşı, ***Pirbudaq, Gülbudaq, Göybudaq, Qarabudaq, Ağbudaq*** adları da işlənir. ***Ağ*** sözü bir çox hallarda türk dillərində xoşbəxt mənasını da ifadə edir. "Səni görüm ağ günə çıxasan" (xoşbəxt olasan). ***Ağbudaq*** – *xoşbəxt budaq* – xoşbəxt övlad anlamını verir.

Qazax türklərində *budaq* sözündən yaranmış *"Minbudaq"* adından istifadə olunur. Azərbaycan dilində belə bir deyim vardır: "Görüm sənin o bircə oğlun (balan) min budaq olsun". Mənası budur ki, övladınız çoxlu oğullu-qızlı olsun. Burada müsbət arzu alqış ifadə edilir. Qazaxlar müsafiri, qonağı ötürəndə – "Gedin, sizə ağ yol olsun" deyirlər ki, bu da yaxşı yol olsun deməkdir. ***Budaq*** şəxs adı türk xalqlarında fəal işlənməkdədir.

***BÜLƏND (o.)*** – Əlçatmaz, uca, yüksək.

**BÜNYAD (o.)** – Bünövrə, özül, təməl.

**BÜRHAN (o.)** – Dəlil, sübut.

# - C -

***CAHAN*** (o.-q.) – Bütün dünya, mövcud aləm. Müştərək səciyyəli şəxs adıdır.

***CAHANDAR (o.)*** – Başbilən, rəhbər.

***CAHANGİR (o.)*** – Dünyanı ələ keçirən, məşhur.

***CAHİD (o.)*** – Çalışqan, işgüzar, məqsədə nail olmağa cəhd göstərən.

***CAVAD (o.)*** – Xoşxasiyyət, xeyriyyəçi, səmimi.

***CAVİD (o.)*** – Daimi, həmişəlik. "An" şəkilçisi ilə *Cavidan*, "ə" ünsürü ilə *Cavidanə* şəxs adları yaranmışdır.

***CƏFƏR (o.)*** – Kiçik həcmli axar çay deməkdir. Bu söz cənnətlə bağlı müqəddəs çay mənasını da bildirir.
Sadə qrammatik quruluşa malik olan bu antroponim bir sıra şəxs adının yaranmasında iştirak etmişdir: ***Cəfərqulu, Ağacəfər, Mircəfər*** və s.

***CAVAHİR (q.)*** – Qiymətli daş-qaş, əvəzsiz, mehriban.

***CƏLİL (o.)*** – Uca, yüksək olan; ən böyük hörmət-izzət əldə etmiş adam.

***CƏSARƏT (o.)*** – Qoçaq, igid, məharətli, hər şeyə qalib gəlməyə səy göstərən.

***CUCİ (o.)*** – Körpə, qonaq, sevgili.
Çingiz xanın böyük oğlunun adıdır. O, Altın Orda dövlətinin yaradıcısı olmuşdur.
Cuci şəxs adı Asiya və Qafqaz türkləri arasında geniş yayılmışdır. Hazırda Dərbənddə yaşayan azərbaycanlıların antroponimik tərkibində 12-dən artıq Cuci adı müşahidə olunur. Cənubi Qafqazda Cuci adı toponim kimi də məşhurdur. Tarixi məlumatlara görə, XIII əsrdə Çingiz xanın oğlu Cuci hərbi vuruş və basqınlarda böyük şücaətlər göstərmiş, xüsusi ad qazanmış, buna görə də atası onun şərəfinə bir kəndə Cuci adı vermişdir. Həmin kənd indiki Gürcüstanın Türkiyə səmtindədir. Son illər ermənilərin əlinə keçmişdir. Cuci kəndi Yırğançay, Soyuqbulaq, İlməzli kəndləri ilə həmsərhəddir. Bu kənd qədimdə hərbi strateji əhəmiyyət daşımış-

dır. Onu əhatə edən mənzərəli ərazilər içərisində ***Əyriqar*** xüsusi gözəlliyə malikdir.

***CUQQU (o.)*** – Qadın başörtüyü mənasını bildirir. Qədimdə qadın yaylığı çox dəbdə olmuş və bəzi valideynlər bu əşyanın adından antroponim kimi istifadə etmişlər.

# - Ç -

***ÇAPAR (o.)*** – Keçmişdə məktub, qəzet və jurnalları tez sahibinə çatdıran əməkdaş belə adlanırdı.

# - D -

***DİLARA (q.)*** – Qəlbaçan, könülaçan, mehriban.

***DİLƏFRUZ (q.)*** – Şadlandıran, ruhlandıran, sevindirən.

***DÜRRƏ (q.)*** – İrihəcmli inci parçası. Məcazi mənalarda işlənərək ən sevimli, ən əziz, ən mehriban məna çalarlarını bildirir.

# - Ə -

***ƏDALƏT (o.-q.)*** – Doğru, düzgün.
Müştərək addır – həm oğlan, həm də qız adı kimi istifadə olunur.

***ƏFŞAN (q.)*** – Saçan, səpən, səpələyən.

***ƏKBƏR (o.)*** – Ulu, böyük, yeganə, ucadan-uca. Allahu-Əkbər.

***ƏLAMƏT (o.)*** – İz, işarə, nişan. “Gördüyün meşədən **əsər-əlamət** qalmayıb”.

***ƏSGƏR (o.)*** – Hərbi ad, orduda ən kiçik hərbi vəzifə, sıravi hərbçi.

*Bilsin ana torpaq, eşitsin vətən,*
*Müsəlləh əsgərəm mən də bu gündən.*
(S.Vurğun)

**Əsgər** sözü bir neçə antroponimin formalaşmasında iştirak edir. *Əli+Əsgər – Ələsgər, Əsgər+ ağa – Əsgərağa* və s.

***ƏŞRƏF (o.)*** – Çox şərəfli, ən əziz, xüsusi hörmət və izzətə malik.

***ƏYYAM (o.)*** Vaxt, zaman anlayışı ifadə edilir.
*Axı, necə kef çəkməli əyyam idi,*
*Onda ki övladı vətən xam idi.*
(M.Ə.Sabir)

# - F -

***FƏXRİ (o.)*** – Ən hörmətli, şərəfli.

***FƏRİD (o.)*** – Misilsiz, tayı-bərabəri olmayan.

***FƏRRUX (o.)*** – Bəxtiyar olan, xoş gün görən.

***FƏRZANƏ (q.)*** – Bilikli, yoldaşlarından fərqlənən alim.

***FƏTANƏT (q.)*** – Dərrakəli, aydın fikirli.

***FƏTTAH (o.)*** – Hər şeyi açmağı bacaran.

***FİKRƏT (o.)*** – Fikirləşmək, düşünmək. Nəticə çıxarmağı bacarmaq.

***FİRUZ (o.)*** – Taleyi gətirən, qalib gələn.

***FİRUZƏ (q.)*** – Qiymətli daş-qaş növü.

***FUAD (o.)*** – Sözün lüğəvi mənası ürək deməkdir. Antroponim kimi müsəlman dünyasında diqqəti çox çəkən adlardandır.

Adlar sistemindəki *Alıfuad, Fuadxan* və sair adların formalaşması bu adın köməyi ilə meydana çıxmışdır. Hazırda azərbaycanlı adları sistemində Fuad şəxs adı yüksək faiz təşkil edir.

# - G -

***GİLAYƏ (q.)*** – Üzüm giləsi mənasını bildirir.

***GÖVHƏR (q.)*** – Qiymətli daşların bir növünün adını bildirir. Bu daş özünəməxsus rəngə və tərkibə malikdir.

*Əziziyəm qaş-daşı,*
*Gövhər daşı, qaş-daşı,*
*Cahil ilə bal yemə,*
*Ahıl ilə daş daşı.* (Bayatı)

***GÜLŞƏN (q.)*** – Güllük, çiçəklik yer.

***GÜLZAR (q.)*** – Gülüstan, güllük yer.

***GÜMRAH (q.)*** – Bu ad Azərbaycan ədəbi dilində polad kimi sağlam bədənə malik adam mənasını ifadə edir*.

* Bu ad mənşə dildə yolunu azmış, azğın, səfeh mənalarını bildirir.

# - H -

***HACI (o.)*** – Kəbəni ziyarət etmiş insan. Hacı sözü ayrıca şəxs adı kimi işlənməklə bərabər ondan Şərq və Qərb müsəlmanları arasında onlarca şəxs adı yaranmışdır. ***Hacıəli, Hacıbala, Hacıdayı, Hacıhəsən, Hacıhüseyn...***

***HADI (o.)*** – Bələdçilik edən, insanlara doğru, düzgün yol göstərən.

***HEVBƏT (o.)*** – Hörmətli, ləyaqətli, nüfuzlu insan.

***HEYRAN (q.)*** – Bu söz dilimizdə sevmək, xoşu gəlmək, məftun olmaq, vurulmaq, valeh olmaq mənalarını ifadə edir.

*Mən aşiqəm üzünə,*
*Heyranam qaş-qözünə.*
*Sən məndən əl üzməzdin,*
*Baxdın özgə sözünə.* (Bayatı)

Quruluşca sadə onomastik addır. *Heyranə* qız adı bu antroponimdən əmələ gəlmişdir.

***HƏLİMƏ (q.)*** – Mülayim xarakterə malik adam. Çox sakit, yumşaq təbiətli, hər şeyə dözməyi bacaran insan.

***HƏSRƏT (o.-q.)*** – İstəyinə çatmaq. Ən çox oğlan istəyi yerinə yetəndə bu ada müraciət olunur.

***HİLAL (o.-q.)*** – Üç-dörd gecəlik təzə ay, yaxud aypara.
*Hilal* müştərək addır. Buna görə də həm oğlan, həm də qız adları sistemində özünə geniş yer tapmışdır.

***HİLMİ (q.)*** – Yumşaq təbiətli, həlim xarakterli, səbir edən.

***HUMAY (q.)*** – Rəvayətə görə, Cənnət quşu. Xoşbəxtlik, səadət rəmzi.

***HÜNƏR (q.)*** – Bacarıqlı, cəsarətli, məharətli.

# - X -

***XALİQ (o.)*** – Yaradan, dünyanı, bütün təbiəti xəlq edən.

***XALİD (o.)*** – Uzun ömür sürən, daimi həyat keçirən, xoşbəxt insan.

***XATİRƏ (q.)*** – Bağışlanılmış və yadda qalan əşya.

***XƏLİL (o.)*** – Yoldaş, sirdaş, dost, mehriban.

***XƏTİB (o.)*** – Məsciddə avazla xütbə oxuyan. Gözəl ədəbi nitq sahibi, natiqliyi ilə insanı heyran edən.

***XOŞQƏDƏM (q.)*** – Ayağı uğurlu olan, xoşbəxtlik gətirən.

***XURŞİD (q.)*** – Xumarlanan, xoşhal olan, mehribanlıq edən.

***XURŞİD (o.)*** – Günəş deməkdir.

# - İ -

***İBADULLA (o.)*** – Tanrının bəndələri.

**İFTİXAR** ***(o.)*** – Fəxr olunan, öyünülən, sevilən.

***İLAHƏ (q.)*** – Cahan, seçilən, hörmət edilən.

***İLHAM (o.)*** – Həvəslənmək, ruhlanmaq. Yüksək zövqə sahib olmaq. Əvəzi olmayan bacarıq sahibi.

***İLHAMƏ (q.)*** – *İlham* sözündən yaradılmış maraqlı addır.

***İLQAR (o.)*** – Söz vermə, əhd, vəd, vəfa mənalarını ifadə edir. Bu sözün vasitəsilə *"ilqar almaq"*, *"ilqar vermək"*, *"ilqarına düz çıxmaq"*, *"ilqarından dönmək"* ifadələri işlənir.

*Aşiq biriynən gərək,*
*Sədəf dürüynən gərək.*
*Dünyada gözəl çoxdur,*
*İlqar biriynən gərək.* (Bayatı)

İlqar müasir dövrün ən dəbdə olan, geniş istifadə olunan kişi adlarındandır.

***İMAN (o.)*** – Etiqad göstərən, inam göstərən.

***İMANYAR (o.)*** – İmamın dostu, onun köməkçisi, imama sadiqlik göstərən.

***İRADƏ (q.)*** – Qarşıya qoyduğu hər hansı məqsədə, diləyə çatmağa xüsusi səy göstərən, yolundan geri dönməyən.

***İRFAN (o.)*** – Hər şeydən xəbərdar olan, Allahı ürəkdən sevən.

***İRŞAD (o.)*** – İnsanları düzgün yola çəkən, onlara doğru yol göstərən.

***İZZƏT (o.-q.)*** – Hörmət, şərəf, şöhrət məna çalarlarını bildirir.
Oğlan üçün *izzət* sözü ad formasında işləndiyi kimi, *ağa* sözünün əlavəsi ilə yaranan İzzətağa adından da istifadə olunur.
Qız üçün *İzzət* adına *xanım* sözü artırılaraq *İzzətxanım* adı yaradılır.

# - K -

***KAMAL (o.)*** – İnsanın kamillik zamanı, ağıllı, müdriklik dövrü.

***KAMANDAR (o.)*** – Silahla bağlı işlər görən: bacarıqlı ovçu, silah gəzdirən, müxtəlif növ silah sevən.

***KƏRƏM (o.)*** – Mərhəmətli olmaq, alicənablılıq, bağışlamağı bacarmaq.

# - Q -

***QABİL (o.)*** – İstedadlı, bacarıqlı, istədiyini əldə edən.

***QADİR (o.)*** – Bacarıqlı, qüdrətli, qüvvətli.

***QƏNDAB (q.)*** – Hazırlanmış şirin su, şərbət.

***QƏNDİL (o.)*** – Evin tavanından asılan lampa növü, çilçıraq.

***QƏNİ (o.)*** – Zəngin adam, var-dövlət sahibi.

***QUMAŞ (q.)*** – İncə, zərif parça növü.

***QUQUŞ (q.)*** – Bu ad ***qu quşu***nun adından yaranmışdır. **Qu *quşu*** iri boylu olub, gözəl quruluşa malikdir. Bunlar, əsasən, ağ rəngdə olur. Onların özünəməxsus xüsusiyyətləri vardır.

*... sulu yerin düzündə,*
*Bulaq qaynar çay-çəmən döşündə,*
*Bulaqotu üzər suyun üzündə,*
*gözəl qular gəlib keçərlər,*
*Xəlvətləyib bulaqdan su içərlər.*

(Şəhriyar)

Müşahidə və deyilənlərə görə, qu quşu ölümünü hiss etmiş kimi ölümündən öncə gözəl səslə oxuyur və dünyasını dəyişir.
*Ququş* adı Borçalı ərazisində daha geniş yayılmış antroponimlərdəndir. Qu quşu türk xalqlarından qazaxlarda totem kimi işlənməkdədir.

# - L -

***LALƏ (q.)*** – Qırmızı rəngli gözəl gül.

***LƏTAFƏT (q.)*** – Gözəllik, incəlik, xoşagəlimlilik.

***LƏTİFƏ (q.)*** – Gülməli söz. *Lətifəsi bizdən uzaq.*

***LİLUFƏR (q.)*** – Çayın dərin yerində bitən qəşəng gül növü. Türk dilində geniş yayılmışdır.

***LÜTFİ (o.-q.)*** – Mehribanlıq göstərmək, yaxşılıq etmək, incə xarakterli.

# - M -

***MAHAL (o.)*** – Müəyyən bir yer, bölgə, sahə mənası ifadə olunur.

*Maral tuş gəldi oxa,*
*Yayındı, çıxdı yoxa,*
*Mahalda kənd bircədi,*
*İçində əlli koxa.* (Bayatı)

***MAHİR (o.)*** – Bacarıqlı, məharətli, cəsarətli insan.

***MAQSUD (o.)*** – Əsasən məqsəd, arzu və istək bildirən leksik vahiddir.
Sadə quruluşlu bu ad tələffüz tərzi və asanlığı ilə dildəki bir sıra antroponimdən seçilir.
Müasir Azərbaycan ədəbi dili sistemində bu ad geniş mövqeyə malikdir. Yüksək dəbdə olduğu üçün bütün türk dünyasında *Maqsud* adına hər yerdə təsadüf etmək olur.

***MANSUR (o.)*** – Qalib gəlmiş, rəqibini üstələmiş, igid adam.

***MEHMAN (o.)*** – Müasir dilimizdə *qonaq, müsafir* mənasını bildirir.

*Əzizim daşdı, dağlar,*
*Çınqıllı, daşdı, dağlar,*
*Sən yatıbsan naqafil,*
*Mehmanın köçdü, dağlar.* (Bayatı)

***MEHPARƏ (q.)*** – Ay parçası, gözəl, göyçək.

***MƏLAHƏT (q.)*** – Gözəl, şirin, ürəyəyatan.

***MƏNZƏRƏ (q.)*** – Təbiətin görünən qəşəng yeri.

***MƏSUMƏ (q.)*** – Təqsiri, günahı olmayan; hər şeydən saf və təmiz.

***MƏŞHƏD (o.)**** – İranın Məşhəd şəhərində 8-ci imam Rzanın məqbərəsini ziyarət etmiş adama verilən dini şəxs adı.

***MƏTLƏB (o.)*** – *Arzu, məqsəd, istək* mənalarını bildirir.
*Aşiqəm, dağı gəzəm,*
*Sinəmdə dağı gəzəm,*
*Mətləbim yarı görmək,*
*İşim nə dağı gəzəm.* (Bayatı)

***MÜNƏVVƏR (q.)*** – Nurlu, parlaq, son dərəcə təmiz.

* Məşhədi.

***MÜRSƏL (o.)*** – Nəyisə həll etmək üçün yola salınmış, ən inanılmış insan, mötəbər elçi.

# - N -

***NADİR (o.)*** – Az tapılan şey, qiymətinə, keyfiyyətinə görə aydınca seçilən.

***NAİLƏ (q.)*** – *Arzuya, məqsədə çatmaq* mənasını bildirir. Bu ad "Nail" antroponiminə "ə" ünsürünün artırılması yolu ilə kişi adından yaradılmışdır.
*Nailə* antroponimik sistemdə geniş mövqeyə malik olan qadın adıdır.

***NATƏVAN (q.)*** – Aciz, gücsüz, zəif, qüvvətsiz.

***NATİQ (o.)*** – Gözəl, ədəbi nitqə sahib olan oğlan.

***NAZİM (o.)*** – Nəyisə nizama gətirən, qayda yaradan.

***NİHAD (o.)*** – Təbiət.

***NİHAL (q.)*** – Cavan ağac, pöhrə.

***NOVRUZ (o.)*** – Yeni il bayramı, Bahar bayramı (mart ayında).

***NÜSRƏT (o.)*** – Xidmət edən, yardım, kömək göstərən.

# - O -

***OCAQVERDİ (o.)*** – Burada "ocaq" müqəddəs dini yer anlayışını bildirir.

***OQTAY (o.)*** – "Ox" və "yay" sözlərindən əmələ gəlmişdir. Oxatay mənasını verir.

# - P -

***PAKİZƏ (q.)*** – Təmiz, ləkəsiz, qəşəng, xoşagələn.

***PƏRİCAHAN (q.)*** – Göyçək, qəşəng, xoşagələn, ürəyəyatan.

***PÜNHAN (q.)*** – Gizli, gözəgörünməz, xəlvəti.

# - R -

***RAFİQ (o.)*** – Bu sözlə sirdaş, yoldaş, həmfikir məna və məna çalarları ifadə olunmuşdur.

***Rafiq*** adının bünövrəsini vaxtilə *rəfiq* apelyativi təşkil etmişdir. İlkin halda "rəfiq" kimi səslənən həmin sözdə sonradan ***ə*** səsi ***a*** səsinə keçdiyi üçün ***Rafiq*** kimi formalaşmışdır.

Hazırda Rafiq adı dəbdə olduğuna görə çox geniş yayılmış və ən sevimli adlardandır.

***RAHİM (o.)*** – Çətinlik çəkənə rəhm edən, kömək əlini uzadan.

***RAMİN (o.)*** – Bəzi əsərlərdə bu sözün mənasının "mərmi atan adam" olduğu bildirilir. Bununla bərabər *ramin* sözünün günəş kimi güclü olan insan anlamını ifadə etdiyi də qeyd olunur.

Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibində Ramin adı xüsusi yer tutur. Geniş yayılmış bu ad zamanın dəbdə olan ən gözəl adlarındandır.

***RASİM (o.)*** – Rəssam, şəkil çəkən.

***RAMİŞ (o.)*** – Musiqi.

***RƏHMAN (o.)*** – Zəhmli, özünü ağır, ciddi aparan.

***RƏLANƏ (q.)*** – Bu adın qəribə tarixçəsi vardır. Bir gənc ailənin qızı olmuş, ona ad vermək üçün çox düşünmüşlər. Valideynlərin üç ad *(Rəna, Lalə* və *Nərgiz)* daha çox xoşlarına gəlmiş, onlardan birini seçməkdə böyük çətinlik çəkmişlər. Uzun mübarizə və məsləhətləşmədən sonra üç adın ön hissəsindən bir parçanı götürüb *Rə+la+nə* (Rəlanə) adını yaratmışlar.
***Rəlanə*** adlar sistemində ürəyəyatan antroponimlər sırasında özünə xüsusi yer tapmışdır.

***RƏXŞƏNDƏ (q.)*** – İşıldayan, parlaqlığı ilə seçilən.

***RƏSUL (o.)*** – Elçi.

***RƏŞAD (o.)*** – Bu söz yüksək insani keyfiyyətləri: zəngin və iti düşüncəliliyi, doğru və düzgün yol tutmağı, haqq və ədaləti qorumağı əks etdirir.

Rəşad şəxs adı bütün türk xalqlarında ən dəbdə olan antroponimlər sistemində geniş yer almışdır. Türkiyə türklərinin hər bir bölgəsində bu adlı insana onlarca miqdarda rast gəlmək olur. Orta Asiya, Qazaxıstan türkləri də bu addan böyük maraqla istifadə etməkdədirlər.

***RƏŞADƏT (o.)*** – Qoçaqlıq göstərən, igidliklə seçilən.

***REYHAN (q.)*** – Bitki növü. *Reyhanə* qız adı bundan yaranmışdır.

***RÖVŞƏN (o.)*** – İşıqlıq, aydınlıq.

# - S -

***SABİQƏ (q.)*** – Keçmişdə baş vermiş hadisə. Sabiq sədr, sabiq direktor.

***SABİR (o.)*** – Səbir edən, dözümlü olan, zəhmətdən qorxmayan.

***SABİT (o.)*** – Əsaslı, daimi yerini tapmış.

***SAÇLI (q.)*** – Doğulanda başında saçı olan. Türk dünyasında bu tipli adlar çoxdur.

***SƏDAD (o.)*** – Doğru olan, haqqı ayaqlamayan.

***SƏİD (o.)*** – Xoşbəxt, bəxtiyar, gələcəkli.

***SƏFA (o.-q.)*** – Saflıq, təmizlik, duruluq. Formaca müştərək addır.

***SƏLİM (o.)*** – Həqiqət tərəfdarı, eybi olmayan, polad bədənli.

***SƏTTAR (o.)*** – Eyib örtən, pis işləri gizlədən.

***SİRAC (o.)*** – Ev çırağı, işıq, məşəl.

***SURƏT (o.)*** – Görünüşü, üzü, sifəti, zahiri əlaməti.

# - Ş -

***ŞADMAN (o.)*** – Şadlanan, sevinən, ruhlanan, qanadlanan (məcazi).

***ŞAHBAZ (o.)*** – Quş (şahin, tərlan).

***ŞAHİN (o.)*** – Yırtıcı quş növü. Dünya türkləri ova gedərkən həmin quşdan geniş istifadə etmişlər.

***ŞAHSUVAR (o.)*** – Şaha aid atlı dəstə.

***ŞAKİR (o.)*** – Təşəkkür bildirən, razılıq edən.

***ŞAİQ (o.)*** – Müəyyən işə, hadisəyə böyük həvəs göstərən.

***ŞAMİL (o.)*** – Aidiyyəti olan. *"Bunları ona şamil etmək olar".*

***ŞƏBNƏM (q.)*** – Gecələr göy-göyərti, yarpaqlar üzərinə düşən şeh.

***ŞƏFA (q.)*** – Xəstəlikdən xilas olan, sağalan insan.

***ŞƏMİSTAN (o.)*** – Günəşli diyar, mahal, ölkə, yurd.

***ŞƏRİF (o.)*** – Şərəfli, çox nəcib, çox hörmətli.

***ŞÜKRAN (o.)*** – Yaxşılıq itirməyən, həmişə təşəkkür edən.

# - T -

***TAHİR (o.)*** – Saf, təmiz anlayışını ifadə edir. *"Aydan arı, sudan duru".*

***TANRIVERDİ (o.)*** – Allahverdi mənasını bildirir. Quruluşca mürəkkəb olan aşağıdakı adlar da bu yolla əmələ gəlmişdir: *Haqverdi, Xalıqverdi, İmamverdi...*

***TƏHSİN (o.)*** – Alqış etmək, bəyənmək.

***TOĞRUL (o.)*** – Qədim türk dilində yırtıcı ov quşlarından bir növünün adıdır.
Toğrul adı türk xalqlarında uzaq keçmişdən istifadə olunan antroponimdir.
Müasir dünyamızın çoxsaylı türk bölmələrinin hər bir arealında Toğrul şəxs adı geniş yayılmış, ən dəyərli, ən təsirli və sevimli antroponim vahid kimi işlənilməkdədir.

***TÖHFƏ (q.)*** Hədiyyə, bəxşiş vermək.

***TURAB (o.)*** – Yer, toz, torpaq.

# - U -

***UĞUR (o.)*** – Nailiyyət əldə edən və xoşbəxtlik qazanan. *Uğur* sözü vasitəsilə *Uğurbəy, Uğurşah, Uğurbala* kimi mürəkkəb adlar yaranmışdır.

# - Ü -

***ÜLVİ (q.)*** – Ən yüksək, əlçatmaz zirvə.

***ÜLVİYYƏT (q.)*** – Ülvi uca deməkdir. Bu sözə *-yyə* artırılmaqla *Ülviyyə, -yyət* əlavə olunmaqla *Ülviyyət* qız adı əmələ gətirilmişdir.

# - V -

***VAHİD (o.)*** – Tək, bir, yalnız, yeganə.

***VAQİF (o.)*** – Ağıllı, hər şeyi bilən, son dərəcə ayıq-sayıq adam.

***VALEH (o.)*** – Vurulmaq, bağlanmaq, sevmək. *"Mən ona valeh olmuşam".*

***VƏFA (o.-q.)*** – Sözündə durmaq, etibarlı olmaq mənalarını ifadə edir.

*Dam üstədi damımız,*
*Sovruldu xırmanımız.*
*Vəfalı yar yolunda*
*Qurban olsun canımız.* (Bayatı)

***VÜQAR (o.)*** – Ləyaqətli, öz qiymətini bilən, mənliyini gözləyən.

***VÜSAL (o.)*** – İstəyinə, məqsədinə nail olan.

# - Y -

***YARƏLİ (o.)*** – Həzrəti Əlinin köməkçisi, sadiq olan.

***YALÇIN (o.)*** – Sıldırım sərt qaya.

# - V -

***VEGANƏ (q.)*** – Tək, bərabəri olmayan, misli görünməyən.

# - Z -

***ZƏFƏR (o.)*** – Qələbə çalan, məqsədinə yetişən, müvəffəqiyyət qazanan.

***ZİBA (q.)*** – Yaraşıqlı, gözəl, var-dövlətli.

***ZİVƏR (q.)*** – Bəzək, zinət.

***ZİYAD (o.)*** – Arzu etdiyindən çox, artıq.

Azərbaycan ədəbi dilinin antroponimik sistemində Avropa mənşəli adlar da mövcuddur. Bunlar da Azərbaycan dilində olduğu qaydada yaranıb formalaşmışdır. Həmin adlardan bir-ikisinə nəzər yetiririk.

***FLORA (q.)*** – Yer üzünün bütün yaşıl zolaqları; oradakı rəngarəng və zəngin ən gözəl bitkiləri: güllər, çiçəklər, ağaclar, müxtəlif növ otların cəmi ***flora*** adlanır.

***İZOLDA (q.)*** – Bu ad – İzolda buzdan çıxmış, buz kimi şəffaf, dümağ, gözəl, göyçək deməkdir.

***ROZA (q.)*** – Ətirli gül növü. Azərbaycanca “qızılgül” deməkdir. ***Roza*** müxtəlif rəngdə və növdə olur. Hazırda dünya səhnəsində roza gülünün ***100 növü*** vardır. Rozalar qırmızı, sarı, mavi və başqa rənglərdə olur. Bunların rənglərinin

yaranması barədə dünya xalqları tərəfindən maraqlı əfsanələr yaranmışdır. Bu əfsanələrin birində roza gülünün ilk dövrlərdə ancaq ağ rəngdə formalaşdığı bildirilir. Orada qırmızı rəngli roza gülünün yaranması barədə deyilir: *Bir bülbül ağ rəngli roza gülünü görüb ona ürəkdən vurulur. Günlərlə, saatlarla həmin gülün başı üstündə fırlanıb onun üzərinə qonub oxumaq arzusunda olur. Çox keçmədən bülbül rozanın üzərindəki tikanların dəhşətli nəticə verə biləcəyinə məhəl qoymadan sevgi gücünə sürətlə gülün üstünə qonur. Bu zaman gülün iti uclu tikanları quşun döşünə batır, onun süzülən qanı gülün ağ rəngini qırmızıya boyayır – qırmızı rəngli roza yaranır*.

Valideynlər qızlarına ***Roza*** adı verdikdə, əsasən, qırmızı rəngli rozanı nəzərdə tuturlar. Bu rəngin rəmzi mənası da yox deyildir.

# AZƏRBAYCANLI OĞLAN ADLARI

## A–Z

# A

## OĞLAN ADLARI

ABA
ABAS }
ABBAS* }
ABAZƏR }
ABUZƏR* }
ABBASAĞA
ABBASBƏY
ABBASƏLİ
ABBASXAN
ABBASQULU
ABBASMİRZƏ
ABDAL
ABDİL }
ABDUL* }
ABDALBƏY
ABDI
ABDIXAN
ABDİN
ABDULALI }
ABDULƏLİ* }

} – Böyük mötərizə ilə eyni adın müxtəlif variantları,
* – ulduz işarəsi ilə həmin variantlardan orfoqrafik və estetik cəhətdən uyğun olan adlar verilmişdir.

ABDULBAĞI
ABDULHƏMİD
ABDULXALİQ
ABDULXƏLİL
ABDULKƏRİM
ABDULQAFAR
ABDULQƏDİR
ABDULLA
ABDULLƏTİF
ABDULRƏHİM
ABDULRƏHMAN
ABDULSALAM
ABDULŞİR
ABEL
ABGÜL
ABI
ABIŞ
ABIŞALI
ABİD
ABİDDİN
ABİDƏLİ
ABİDXAN
ABLAY

ABTALIB }
ABUTALIB* }
ABTURAB
ABUD
ABUHƏYAT
ABUSALAM
ABUSALAT
ABUVƏKİL
ABUZƏR
ADAXAN
ADƏM
ADIBƏLLİ
ADIBƏY
ADIBÖYÜK
ADIGÖZƏL
ADIXAN
ADISÖNMƏZ
ADIŞİRİN
ADİL* }
ƏDİL }
ADİLXAN
ADNAN

AFAD* }
AFAT }
AFATXAN
AFƏR
AFİK }
AFİQ* }
AFİL
AFİTAB* }
AFTAB }
AFİYƏDDİN
AFŞAR
AFTANDİL
AĞA
AĞAALİM
AĞABABA
AĞABALA
AĞABƏY
AĞACAMAL
AĞACAN
AĞACAVAD
AĞACƏFƏR
AĞACƏLİL
AĞACƏMİL

AĞADADAŞ
AĞADAYI
AĞADƏDƏ
AĞAƏLİ
AĞAƏMİ
AĞAƏZİZ
AĞAGÜL
AĞAGÜN
AĞAHƏSƏN
AĞAHÜSEYN
AĞAXAN
AĞAKAMAL
AĞAKAZIM
AĞAKƏRİM
AĞAKİŞİ
AĞAQULU
AĞALAR
AĞAMALI
AĞAMEHDİ
AĞAMƏCİD
AĞAMƏLİK
AĞAMƏMMƏD
AĞAMƏRDAN

AĞAMƏŞƏDİ
AĞAMİR
AĞAMİRİ
AĞAMİRZƏ
AĞAMURAD
AĞAMUSA
AĞANƏSİB
AĞANƏZƏR
AĞAPAŞA
AĞARƏFİ
AĞARƏŞİD
AĞARZA
AĞASALAM
AĞASALEH
AĞASALMAN
AĞASƏF
AĞASƏFƏR
AĞASƏLİM
AĞASƏMƏD
AĞASI
AĞAŞƏRİF
AĞAŞİR
AĞAŞİRİN

AĞAVERDİ
AĞAVƏLİ
AĞAYAR
AĞAZADƏ
AĞAZAL
AĞAZAMAN
AĞAZEYNAL
AĞAZƏR
AĞYOL
AXUND
AXUNDBABA
AKİF
AQİBƏT
AQİL
AQSİN }
AQŞİN* }
ALAŞ
ALAY
ALAZAN
ALÇİN }
ELÇİN* }
ALƏM

ALƏMDAR* }
ƏLƏMDAR }
ALƏŞRƏF
ALXAN
ALXAS* }
ALXAZ }
ALI
ALICAN }
ƏLİCAN* }
ALIFUAD
ALIŞ
ALIŞAN }
ƏLİŞAN* }
ALİDDİN
ALİK
ALİM
ALİMXAN
ALQAYIT
ALLAHQULU
ALLAHŞÜKÜR
ALLAHVERDİ
ALLAHVERƏN
ALLAHYAR

ALMƏMMƏD
ALIMƏRDAN* }
ALMƏRDAN }
ALIMURAD
ALOV
ALP
ALPAŞA }
ALIPAŞA* }
ALPAY
ALPXAN
ALŞAN
ALTAY
ALTINBƏY
ALYOŞ
AMAL
AMANXAN
AMAŞ
AMİD
AMİL
AMİN
AMİR
AMİYƏT
AMUR

ANAN
ANAR
ANARBƏY
APREL
ARAN
ARANBƏY
ARANXAN
ARASLAN
ARAT
ARAZ*
ARAS
ARAZBƏY
ARAZXAN
ARIQ
ARİF
ARİM
ARİZ
ARMAĞAN
ARSLAN
ARSLANXAN
ARUZ
ARZU
ARZUMAN

ASAF
ASƏF*
ASİF
ASLAN*
ASDAN
ASLANXAN
ASİM
AŞİQ
AŞUR
AŞURBƏY
AŞURƏLİ
ATA
ATABABA
ATABALA
ATABƏY
ATACAN
ATAXAN
ATAKİŞİ
ATALAR
ATAMƏLİ
ATAMOĞLAN
ATAŞ
ATƏŞ*

ATDIXAN
ATLIXAN*
ATİF
ATİLLA*
ATTİLA
AVAZ
AVAZMİRZƏ
AVDI
AYATULLA
AYAZ
AYÇİN
AYDƏMİR
AYDIN
AYSEL

AYXAN
AYLAR
AYNALI
AYNUR
AYVAZ
EYVAZ*
AZAD
AZADƏLİ
AZADXAN
AZAY
AZƏR
AZƏRBAYCAN
AZƏROĞLU
AZİM

# B

## OĞLAN ADLARI

BABA
BABABALA
BABABƏY
BABACAN
BABADADAŞ
BABAƏMİ
BABAXAN
BABAXƏLİL
BABAKİŞİ
BABAQULU
BABALI
BABAMİRZƏ
BABAN
BABAŞ
BABAVERDİ

BABAYAR
BABƏK
BAĞI
BAĞIR
BAHADIR* }
BAHADUR }
BAHARƏDDİN
BAHARƏ
BAHADİN }
BAHƏDDİN* }
BAXIŞ
BAXŞEYİŞ
BAXŞƏLİ
BAXŞI
BAXŞIXAN

BAKIXAN
BALA
BALABƏY
BALACA
BALADADAŞ
BALADAYI
BALAƏHMƏD
BALAƏMİ
BALAFƏR
BALAĞA
BALAHƏSƏN
BALAHÜSEYN
BALAXAN
BALAKƏRİM
BALAKİŞİ
BALAQARDAŞ
BALAMƏMMƏD
BALAMİRZƏ
BALASADIQ
BALAŞ
BALAŞAH
BALAŞİRİN
BALAVERDİ
BALAY
BALAYAR

BALDADAN
BALDADAŞ
BALİ
BALOĞLAN
BAMSI
BARAT
BATIXAN
BAYAT
BAYCAN }
BƏYCAN* }
BAYDAR
BAYXAN
BAYRAM
BAYRAMQULU
BECAN
BEHBUD
BEHCAT
BEHZAD
BEKDAŞ
BEYDULLA
BƏBİR
BƏDƏL
BƏDƏLXAN
BƏDİR
BƏDİRBƏY

BƏDİRƏDDİN
BƏDİRXAN
BƏDİRŞAH
BƏHLUL
BƏHMƏN
BƏHRAM
BƏHRUZ
BƏXTİYAR
BƏKİR
BƏSİR
BƏŞİR
BƏŞİRƏLİ
BƏTİR
BƏTUL
BƏY
BƏYALI
BƏYBALA
BƏYDADAŞ
BƏYXAN
BƏYLƏR
BƏYVERDİ
BİBİQULU
BİCAN
BİCCƏT
BİKƏS
BİQƏM
BİLAL
BİLAS
BİLƏNDƏR
BİNAMİN
BİNƏLİ
BİRMAN
BORAN
BOYAQÇI
BÖYÜKAĞA
BÖYÜKXAN
BÖYÜKKİŞİ
BUDAQ
BUĞAC
BULUD
BULUDXAN
BURXAN
BURZU
BUTA
BUTABƏY
BÜLBÜL
BÜLƏND
BÜNYAD
BÜRHAN

# C

## OĞLAN ADLARI

CABBAR
CABİR
CAHAN
CAHANBAXIŞ
CAHANDAR
CAHANGİR
CAHƏD }
CAHİD* }
CAMAL
CAMALƏDDİN
CAMULLA
CANBAXIŞ
CANƏLİ
CANI
CANKİŞİ
CANMİRZƏ
CARULLA }
CƏRULLA* }
CAVAD
CAVADXAN
CAVAN
CAVANŞİR* }
CİVANŞİR }
CAVİD
CAVİDAN
CAZİBƏ

CEYLAN
CEYHAN
CEYHUN
CƏBİ
CƏBİŞ
CƏBRAYIL
CƏFƏR
CƏFƏRQULU
CƏHALƏT
CƏLAL
CƏLAYİR
CƏLİL
CƏMİL
CƏMİLBƏY
CƏMŞİD
CƏNNƏT
CƏNNƏTƏLİ
CƏRULLA }
CƏRULLAH* }
CƏSARƏT
CƏSUR
CƏZAYİR
CIĞAT

CİDA
CİHAT
COMƏRD* }
COMƏRT }
COŞĞUN }
COŞQUN* }
CÖVDƏT
CÖVDƏTBƏY
CUCİ
CUQQU
CULEYXAN
CUMA }
CÜMƏ* }
CUMALI }
CÜMƏLİ* }
CUMAY
CUMAYIL
CÜMİ
CÜMŞÜD
CÜMÜ
CÜRƏT
CÜRƏLİ
CÜVAY

# Ç

## OĞLAN ADLARI

ÇAÇI
ÇADAUR
ÇAPAR
ÇAPAY
ÇARUQ
ÇAYLAR
ÇEŞNİ
ÇƏLƏBİ
ÇƏMƏNZAR
ÇƏRKƏZ
ÇIRAQ
ÇİNGİZ* }
ÇİNĞİZ }
ÇOBAN

# D

## OĞLAN ADLARI

DADAŞ
DADAŞBALA
DADAŞXAN
DAĞBƏ
DAĞBƏYİ
DAĞISTAN
DAĞLAR
DALĞIN
DAMƏD }
DAMƏT* }
DASTAN
DAŞDƏMİR
DAŞQIN
DAVİD
DAVUD
DAYANDUR
DAYIXAN
DƏDƏBƏY
DƏDƏCAN
DƏDƏXAN
DƏDƏKİŞİ
DƏDƏLİ
DƏMİR
DƏMİRCAN
DƏMİRÇİ
DƏNİZ

DƏNİZXAN
DƏNYAR
DƏRBƏND
DƏRGAH
DƏRVİŞ
DƏYANƏT
DƏYYAM
DİDƏM
DİLAVƏR
DİLÇİN
DİLDAR
DİLƏK
DİLKƏŞ
DİLQƏM
DİVANBƏY
DİYAR
DOLĞUN
DOMRUL
DOSTƏLİ
DƏSTƏMİ
DOSTMƏMMƏD
DÖNMƏZ
DÖNÜŞ
DÖVLƏT
DÖVLƏTALI
DÖVLƏTBƏY
DÖYÜŞ
DUMAN
DUNAY
DURASI
DURSUN
DÜNYABİR
DÜNYAMALI
DÜNYAMİN* }
BÜNYAMİN }

# E

## OĞLAN ADLARI

EDİL
EHRAN
EHTİRAM
ELARİZ
ELAY
ELBƏY
ELBƏYİ
ELBİR
ELBU
ELBRUS
ELCAN
ELÇİBƏY
ELÇİN
ELDAR
ELDAŞ
ELDƏNİZ
ELDOST
ELFAQ
ELGƏZƏR
ELGİZ
ELGÜL
ELGÜN
ELXAN
ELİZƏR
ELKÖÇƏR
ELKÖMƏK
ELMAN
ELMAR
ELMAS
ELMDAR

ELMƏDDİN
ELMİ
ELMİXAN
ELMİN
ELMİR
ELMUR
ELMURAZ
ELNAR
ELNUR
ELOĞLU
ELSƏS
ELSEVƏN
ELSEVƏR
ELŞAD
ELŞƏN
ELTAC
ELTƏKİN
ELTƏN
ELTON
ELTUN
ELTURAL
ELTURAN
ELVİN
ELVİR
ELVÜQAR
ELYANAQ
ELYANAR

ELYAR
ELYAZ
ELZAR }
ELZƏR* }
EMİL
EMİN
EMİNBƏY
EMRUZ
ENGİN
ERKƏN
ERKİN
ERŞAD
EŞQİN
EŞMİ
ETİBAR
ETİQAD
ETİMAD
EYNAL
EYNALI }
EYNƏLİ* }
EYNULLA
EYNUR
EYNURLA
EYVAZ* }
AYVAZ }
EYYUB

# Ə

## OĞLAN ADLARI

ƏBDÜL
ƏBDULBƏŞİR
ƏBDULCAMAL
ƏBDÜLCƏLİL
ƏBDÜLCƏMİL
ƏBDÜLƏLİ
ƏBDÜLƏZƏL
ƏBDÜLƏZİZ
ƏBDÜLHƏMİD
ƏBDÜLHƏSƏN
ƏBDÜLHÜSEYN
ƏBDÜLXALİD
ƏBDÜLXALİQ
ƏBDÜLXƏLİL
ƏBDÜLKƏRƏM
ƏBDÜLKƏRİM
ƏBDÜLQASIM
ƏBDÜLQƏDİR
ƏBDÜLLƏTİF
ƏBDÜLMANAF
ƏBDÜLMƏCİD
ƏBDÜLPAŞA
ƏBDÜLRƏHMAN
ƏBDÜLSƏİD
ƏBDÜLŞAH
ƏBDÜLVAHAB

ƏBDÜLVAHİD
ƏBİL
ƏBLUÇ
ƏBUSƏİD
ƏBÜLFƏT
ƏBÜLFƏZ
ƏBÜLHƏSƏN
ƏBÜLHÜSEYN
ƏBÜLQASIM
ƏDAHİM
ƏDALƏT
ƏDHƏM
ƏDİB
ƏDİL
ƏDNAN
ƏDNƏM
ƏFQAN
ƏFLAN
ƏFLATUN
ƏFON
ƏFRAİL
ƏFRAİM
ƏFRASİYAB
ƏFRƏT
ƏFSƏL
ƏFSƏR
ƏFSUN
ƏFŞAR
ƏFZƏL
ƏFZƏLƏDDİN
ƏHƏD
ƏHƏDDİN
ƏHLİMAN
ƏHLİYAR
ƏHMƏD
ƏHMƏDAĞA
ƏHMƏDALI
ƏHMƏDİYYƏ
ƏHSƏN
ƏJDƏR
ƏKBƏR
ƏKRƏM
ƏLABBAS
ƏLAĞA
ƏLAMƏT
ƏLƏDDİN

ƏLƏFSƏR
ƏLƏKBƏR
ƏLƏMDAR
ƏLƏMŞAH
ƏLƏS
ƏLƏSGƏR
ƏLƏŞRƏF
ƏLFƏDDİN
ƏLFİ
ƏLİ
ƏLİBABA
ƏLİBALA
ƏLİBƏY
ƏLİCAN
ƏLİƏKBƏR
ƏLİƏKRƏM
ƏLİƏSGƏR
ƏLİF
ƏLİFAĞA
ƏLİHEYDƏR
ƏLİHÜSEYN
ƏLİXAN
ƏLİKƏRƏM
ƏLİKƏRİM
ƏLİKRAM
ƏLİQULU
ƏLİMƏMMƏD
ƏLİMƏRDAN
ƏLİMİRZƏ
ƏLİMUSA
ƏLİPAŞA
ƏLİRZA
ƏLİSA
ƏLİSAHAB
ƏLİSAHİB
ƏLİSALAM
ƏLİSƏFA
ƏLİSKƏNDƏR
ƏLİSULTAN
ƏLİŞ
ƏLİŞİR
ƏLİŞAH
ƏLİŞAN
ƏLİŞİR
ƏLİTAQƏT

ƏLİYAR }
ƏLYAR*
ƏLİYULLA
ƏLİYUSİF
ƏLİZAMAN
ƏLİZAMİN
ƏLQAFAR
ƏLQAFUR
ƏLQAYIT
ƏLLƏZ
ƏLÖVSƏT
ƏLVAN
ƏLVERDİ
ƏLVİN
ƏLYƏSƏR
ƏMANƏT
ƏMBƏR
ƏMƏL
ƏMİCAN
ƏMİKİŞİ
ƏMİN
ƏMİR
ƏMİRASLAN

ƏMİRXAN
ƏMİRQULU
ƏMİRSULTAN
ƏMRAH
ƏMRAN
ƏMRUH
ƏMRUL
ƏMRULLA
ƏNNAĞI
ƏNSƏR
ƏNUŞİRƏVAN
ƏNVƏR
ƏNVƏRCAN
ƏRCAN
ƏRDOĞAN
ƏRDOST
ƏRƏBXAN
ƏRƏN
ƏRƏSTUN
ƏRXAN
ƏROĞUZ
ƏROL
ƏRRƏHMAN

ƏRŞAD
ƏRTAC
ƏRTƏKİN
ƏRTOĞRUL
ƏRZİMAN
ƏRZUN
ƏSABƏLİ* }
ƏSƏBALI }
ƏSƏD
ƏSƏDULLA
ƏSGƏR
ƏSGƏRƏLİ
ƏSGƏRXAN
ƏSİLDAR
ƏSLAN }
ASLAN* }
ƏSLİXAN
ƏŞİR
ƏŞRƏF
ƏŞRƏFƏLİ

ƏTRAF
ƏVƏZ
ƏVƏZALI
ƏVƏZXAN
ƏYYAM
ƏYYUB
ƏYYUBXAN
ƏZƏL
ƏZƏLXAN
ƏZƏMƏT
ƏZİM
ƏZİZ
ƏZİZAĞA
ƏZİZƏLİ
ƏZİZXAN
ƏZİZMƏMMƏD
ƏZİZULLA
ƏZMİ
ƏZMULLA

# F

## OĞLAN ADLARI

FAXİR
FAİQ
FAİL
FAİT
FAİZ
FAKİR
FAQİL
FAMİD
FAMİL
FARİQ
FARİZ
FARUQ
FATEH
FAYMAN
FAZİL
FELMAN
FEYDULLA
FEYRUZ
FEYYAZ
FEYZƏDDİN
FEYZİ
FEYZİYAB
FEYZULLA
FƏALİYYƏT
FƏDA
FƏDAİ

FƏDAİL
FƏĞAN
FƏHMİ
FƏHMİL
FƏHMİN
FƏXAN
FƏXRƏDDİN
FƏXRİ
FƏQAN
FƏQANİ
FƏQƏT
FƏNAZ
FƏRABİ
FƏRAHİM
FƏRAİL
FƏRAİM
FƏRAİZ
FƏRAMƏZ* }
FƏRƏMƏZ }
FƏRASƏT
FƏRDA
FƏRDİ
FƏRƏC
FƏRƏCULLA
FƏRHAD
FƏRHAN
FƏRXAN
FƏRİD
FƏRMAN
FƏRMAYIL
FƏRRUX
FƏRYAD
FƏRZALI }
FƏRZƏLİ* }
FƏRZAYIL
FƏRZƏDDİN
FƏRZİ
FƏRZULLA
FƏTƏLİ
FƏTƏLİXAN
FƏTHİ
FƏTİXAN
FƏTTAH
FƏTTAHXAN
FƏTTAR
FƏTULLA

FƏYYAZ
FƏZAİL
FƏZAİR
FƏZALƏDDİN
FƏZİ
FƏZİLƏDDİN
FƏZİLƏT
FƏZLİ
FİKRƏT
FİKRİ
FİLAMİN
FİLAN
FİLHAMİ
FİRAD
FİRDOVSİ
FİRDUS
FİRİDUN* }
FİRUDUN }
FİRQƏT
FİRUZ* }
FİRUS }
FİTAT
FOVZİ }
FÖVZİ* }
FUAD
FÜRSƏND
FÜRSƏT
FÜRUZAT
FÜZULİ

# G

## OĞLAN ADLARI

GƏNCƏLİ
GƏNCİM
GƏRAY
GÖYÇƏ
GÖYXAN
GÖYÜŞ
GURSEL
GÜCXAN
GÜLAĞA
GÜLALI
GÜLAYİM
GÜLBABA
GÜLBALA
GÜLBUTA
GÜLÇİN
GÜLƏDDİN
GÜLƏHMƏD
GÜLƏNİ
GÜLFÜQAR
GÜLHAN
GÜLHƏSƏN
GÜLHÜSEYN
GÜLXAN
GÜLQASIM
GÜLMƏMMƏD
GÜLMƏT

GÜLMİR
GÜLMİRZƏ
GÜLMURAD
GÜLNİYAZ
GÜLXAN
GÜLPAŞA
GÜLRZA
GÜLŞAH
GÜLVERDİ
GÜLVƏRD
GÜLYAR
GÜLZAMAN

GÜLZAMİN
GÜMRAH
GÜNALI }
GÜNƏLİ* }
GÜNDÜZ
GÜNƏR
GÜNXAN
GÜNSEL
GÜRŞAD
GÜVƏN
GÜVƏNC
GÜVƏNDİK

# Ğ

## OĞLAN ADLARI

Müasir Azərbaycan ədəbi dilində "ğ" səsi ilə başlanan, istər apelyativ, istərsə də onomastik söz işlənmir.

# H

## OĞLAN ADLARI

HABİL
HABİT
HACI
HACIAĞA
HACIBABA
HACIBALA
HACIBƏY
HACIƏLİ
HACIƏMİ
HACIFUAD
HACIHƏSƏN
HACIHÜSEYN
HACIXAN
HACIMAHMUD
HACIMEHDİ
HACIMƏMMƏD
HACIMURAD
HACIVERDİ
HADI }
HADİ* }
HAFİD
HAFİZ
HAKİM
HAQQI
HAQQULU

HAQVERDİ*
HAXVERDİ
HALAY
HAMƏT
HAMİD*
HƏMİD
HAMLET
HARİD
HARUN
HAŞİM
HATƏM*
HƏTƏM
HATƏMXAN
HEKAYƏT
HEKİM
HEYBƏR
HEYBƏT
HEYDƏR
HEYDƏRAĞA
HEYDƏRBABA
HEYDƏRBALA
